23 iyun 2023 №47-48 (2017)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Dövlət qulluqçuları təltif edilib

İyunun 23-ü dövlət qulluqçularının peşə bayramı günüdür. Bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada qeyd olunur.

Ənənəvi olaraq əlamətdar gün ərəfəsində Prezident İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb. İyunun 22-də imzalanan sərəncamla dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 32 nəfər "Tərəqqi" medalı ilə, 180 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

səh. 2

## ICESCO Azərbaycanla əməkdaşlıqdan məmnundur

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktorunun dəvəti ilə 20-22 iyun tarixlərində Mərakeş Krallığının Rabat şəhərində səfərdə olub.



Səfər çərçivəsində iyunun 21-də nümayəndə heyəti ilə ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik arasında görüş keçirilib. Təşkilatın qərargahında keçirilən görüşdə Azərbaycanın Mərakeş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri, ölkəmizin ICESCO yanında daimi nümayəndəsi Nazim Səmədov da iştirak edib.

Faydalı əməkdaşlığa görə Azərbaycan tərəfinə təşəkkürünü bildirən baş direktor ölkəmizlə ICESCO arasında əlaqələrin uğurlu inkişaf etməsində Prezident İlham Əliyevin müstəsna rolunu yüksək qiymətləndirdiyini məmnunluqla ifadə edib.

davamı səh. 3-də

## Beynəlxalq Muğam Müsabiqəsinin qalibləri elan olundu

### Qran-prinin biri Özbəkistana gedir, biri Azərbaycanda qalacaq...







Xəbər verdiyimiz kimi, "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı çərçivəsində ənənəvi olaraq beynəlxalq müsabiqə də təşkil edilib. Azərbaycan Milli Konservatoriyasında xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə keçirilən müsabiqə iki turdan ibarət olub.

Müsabiqəyə Azərbaycan, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı, o cümlədən ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı qatılıb. Ölkəmizi instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə 4 ifaçı təmsil edib. Onların ifalarını beynəlxalq münsiflər heyəti – Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti Siyavuş Kərimi (sədr), Böyük Britaniyadan "Songlines" musiqi jurnalının baş redaktoru Simon Broughton, İraqdan ud ifaçısı Nasir Şamma, Özbəkistandan "Soqdiana" Dövlət Ənənəvi Alətlər Kamera Orkestrinin yaradıcısı və dirijoru Firuzə Abdurahimova, Türkiyədən Beynəlxalq Ənənəvi Musiqi Şurasının Türkdilli dünya musiqisi üzrə tədqiqat qrupunun rəhbəri Abdullah Akat qiymətləndiriblər.

Müsabiqənin 19-20 iyun tarixlərində keçirilən birinci turundan sonra 10 iştirakçı (instrumental ifaçılıq üzrə 5 nəfər, xanəndəlik kateqoriyası üzrə 5 ifaçı) ikinci tura vəsiqə qazanmışdı.

Müsabiqənin ikinci turu iyunun 21-də keçirilib. İnstrumental ifaçılıq kateqoriyasında Vaqif Təhməzov, Cahandar Mikayılov, Anar Vəlizadə (Azərbaycan), Shoxijohan Yoriev, Toshtemur Shukurullayev (Özbəkistan), xanəndəlik kateqoriyasında Mirəli Sarızadə, Daşqın Kürçaylı (Azərbaycan), Mohiçehra Şahmurotova, Dostmurod Negmurodov (Özbəkistan) və İsa Shokri Charandabi (İran) öz ifalarını təqdim ediblər.

İyunun 22-də müsabiqənin ikinci turunun nəticəsi olaraq qalib və mükafatçılar elan olunub.

Münsiflərin yekdil rəyinə əsasən, müsabiqənin xanəndəlik kateqoriyasında baş mükafatı – Qran-prini Mohiçehra Şahmurotova (Özbəkistan) qazanıb. Birinci yeri Mirəli Sarızadə (Azərbaycan), ikinci yeri Daşqın Kürçaylı (Azərbaycan), üçüncü yeri isə Dostmurod Negmurodov (Özbəkistan) tutub.

İnstrumental ifaçılıq kateqoriyasında Qran-pri mükafatına tarzən Vaqif Təhməzov (Azərbaycan) layiq görülüb. Bu kateqoriyada 1-ci yerə Anar Vəlizadə (Azərbaycan, balaban), 2-ci yerə Shoxijohan Yoriev (Özbəkistan, rübab), 3-cü yerə isə Cahandar Mikayılov (Azərbaycan, kamança) sahib olub.

Qaliblərə mükafatlar "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalının iyunun 25-də Heydər Əliyev Mərkəzində keçiriləcək yekun konsertində təqdim ediləcək.

Münsiflər heyətinin sədri Siyavuş Kərimi bildirib ki, müsabiqə istedadların özlərini daha geniş auditoriyaya təqdim etməsi istiqamətində bir təkan olub. O, müsabiqənin təşkilində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkür edib.

Münsiflər heyətinin üzvləri də çıxış edərək müsabiqə barədə öz təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

## Heydər Əliyev Mərkəzində caz günləri




İyulun 3-dən 7-dək V Beynəlxalq Bakı Yay Caz Günləri keçiriləcək. "Premier LTD" agentliyinin təşəbbüsü və təşkilatçılığı ilə reallaşan layihəyə bu il Heydər Əliyev Mərkəzi dəstək verir.

Konsertlər qapalı məkanlarla yanaşı, açıq havada da təqdim ediləcək. Əvvəlki illərdə olduğu kimi, bu il də caz günlərinin proqramı olduqca zəngindir.

Festivalın açılışında – iyulun 3-də Heydər Əliyev Mərkəzinin "Auditorium" zalında Türkiyənin məşhur gitaraçısı Önder Focan caz vokalçısı Meltem Ege ilə çıxış edəcək.

Həmin gün Heydər Əliyev Mərkəzində pianoçu Elçin Şirinovun israilli həmkarları ilə konserti də olacaq.

Mərkəzin parkının ərazisindəki konsertlərə giriş sərbəstdir.

## "Muğam aləmi" festivalının konsertləri

"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı rəngarəng konsertlərlə davam edir.

18-25 iyun tarixlərində gerçəkləşən festivalın konsertləri paytaxtın bir neçə məkanında, eləcə də Ağcabədi və Şuşada keçirilir.

İyunun 20-də Beynəlxalq Muğam Mərkəzində Malidən olan tanınmış ifaçı Kankou Kouyatenin konserti təqdim edilib. Onu sənət dostları Sefoudi Kouyate, Assaba Drame (hər ikisi milli alətlərində), Vale Akindiya (kontrabas) və Vura Samba (zərb alətləri) müşayiət ediblər. K.Kouyatenin akustik folklor və hipnotik bluzdan tutmuş roka qədər ifa etdiyi mahnılar populyarlıq qazanıb.

Həmin gün daha bir konsert Azərbaycan Milli Konservatoriyasında təqdim olunub. Konsertdə bəstəkar, pianoçu, beynəlxalq müsabiqələr laureatı, Fransada yaşayan soydaşımız Etibar Əsədli Samuel FHima (kontrabas) və Laurent Emmanuel Bertholo (zərb alətləri) ilə birgə səhnəni bölüşüb.

İyunun 20-də festivalın daha bir konserti Ağcabədi şəhərindəki Ü.Hacıbəyli adına Qarabağ Muğam Mərkəzində reallaşıb. Konsertdə "Muğam" televiziya müsabiqəsinin müxtəlif illərdə qalibi olmuş xanəndələr – Əməkdar artistlər İlkin Əhmədov, Səbuhi İbayev, xanəndələr Günay İmamverdiyeva, Sərxan Bünyadzadə, Nisbət Sədrayeva, Babək Şuşalı və Vəfa Orucova çıxış ediblər.



davamı səh. 2-də

## Berlində "Azərbaycanda yəhudi həyatı" adlı tədbir keçirilib




Azərbaycanın və İsrailin Almaniyadakı səfirliklərinin birgə təşkilatçılığı ilə Berlindəki Pestalotsi sinaqoqunda "Azərbaycanda yəhudi həyatı" adlı tədbir, habelə eyniadlı sərgi və "Azərbaycanda yəhudi irsi" adlı fotokitabın təqdimatı keçirilib.

Tədbirə Almaniya Yəhudiləri Mərkəzi Şurası, Berlin Yəhudi İcması və Avropa Ravvinləri Konfransı kimi Avropanın nüfuzlu yəhudi təşkilatları dəstək verib. Tədbirdə Bundestaq deputatları, rəsmilər, diplomatlar, elm və mədəniyyət xadimləri, Almaniyada yaşayan Azərbaycan, yəhudi, türk və digər icmaların üzvləri iştirak ediblər.

davamı səh. 3-də

## 26 İyun – 105 il sonra...

Yüz il əvvəlin zəfər yolu bir gün Qarabağdan da keçəcək... Beş il öncə Cümhuriyyət tariximizin şanlı səhifələrindən birinin – Azərbaycan Milli Ordusunun yaranmasının 100-cü ildönümünə həsr edilən yazımın sərlövhəsi belə idi. Etiraf edək ki, o zaman o "bir gün"ün iki il sonra yetişəcəyini kimsə desə, inanmazdıq. Amma o günün gələcəyinə ümidimiz heç vaxt itməmişdi, Qarabağ Zəfərinin nə zamansa gerçək olacağına inanırdıq...

Budur, artıq üçüncü ildir 26 İyun – tariximizin yüz ilin o tayında qalan səhifəsi, sadəcə, əlamətdar təqvim günü olmaqdan çıxıb və onu canı-könüldən, gerçək bir Zəfər ruhu ilə qarşılayırıq...



***

Hərçənd bu günün tarixindən də, tariximizin 1918-ci ilin 26 iyunu ilə başlayan, amma qısa sürən rəşadətli səhifəsindən də uzun illər xəbərsiz olmuşduq. Cümhuriyyət dövrünün əksər səhifələri kimi... Yalnız 1998-ci ildə bu gün təqvimdə haqq etdiyi yeri aldı. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü elan edildi...

davamı səh. 6-də

## Qurban bayramı iyunun 28-də başlayacaq

İslam dünyasında Yaradanın insanlığa lütf və inayətinin rəmzi olan, insanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirən Qurban bayramı bu il iyunun 28-də başlayacaq.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar şurası Qurban bayramı ilə bağlı fətva verib. Fətvada qeyd olunur ki, AMEA Şamaxı Astrofizika Rəsədxanasının 2023-cü il hesablamalarına əsasən, Azərbaycan üfüqündə hilalın görünməsi ilə bağlı builki Qurban bayramı 28 iyun tarixinə təsadüf edəcək. Şəriətə uyğun olaraq, Qurban kəsimi həmin tarixdən başlayaraq 3 gün davam edə bilər.

## Musiqili Teatrda "Sevənlərindir dünya"



səh. 3

## Mərakeşlə mədəni əlaqələr müzakirə olunub

Mədəniyyət günlərinin mühüm rolu qeyd edilib

səh. 3

## Ulu öndər Heydər Əliyevə həsr olunan əsərlər səslənib



səh. 5

№47-48 (2017)
23 iyun 2023
www.medeniyyet.az

# Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır

## Qazaxıstan şirkətlərinin azad edilmiş ərazilərdəki layihələrdə iştirakı müzakirə olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edib.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji xarakter daşıdığını deyən dövlət başçısı əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğunu bildirib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilmiş razılıqların uğurla həyata keçirildiyini və onların icrasının daim diqqətdə saxlanıldığını bildirən İlham Əliyev bunu əməkdaşlığımızın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirib. Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş məkanda əməkdaşlıq üçün böyük önəm daşıdığını qeyd edib. Azərbaycan Prezidenti bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu deyib, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə böyükmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini vurğulayıb.

Bu il 100 illik yubileyi qeyd olunan Ümummilli lider Heydər Əliyevin Qazaxıstana həmişə səmimi dostluq münasibəti bəslədiyini deyən qonaq bildirib ki, aprel ayında Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Heydər Əliyev küçəsinin açılışı ölkələrimizin və xalqlarımızın birliyini bir daha təcəssüm etdirib.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən Alixan Smailov ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu, ötən ilin nəticələrinə görə qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını diqqətə çatdırıb. Qeyd edib ki, bu göstəricinin daha da artırılması üçün imkanlar var.

Görüşdə Qazaxıstan tərəfindən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirilib, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olunub, ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Söhbət zamanı dost ölkə Qazaxıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müxtəlif layihələrdə iştirakı perspektivləri müzakirə olunub.

## Dövlət qulluqçuları təltif edilib

İyunun 23-ü dövlət qulluqçularının peşə bayramı günüdür. Bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada qeyd olunur.

2003-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən 23 iyunun “Dövlət qulluğu günü” elan olunması barədə qətnamə qəbul edilib və dünya dövlətlərinə bununla bağlı çağırış edilib. 25 may 2006-cı ildə Prezident İlham Əliyev bu barədə müvafiq sərəncam imzalayıb və əlamətdar gün Azərbaycanda ilk dəfə həmin il qeyd olunub.

Ənənəvi olaraq əlamətdar gün ərəfəsində Prezident İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb. İyunun 22-də imzalanan sərəncamla dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 32 nəfər “Tərəqqi” medalı ilə, 180 nəfər “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilib.

Təltif olunanları, eləcə də dövlət qulluğunda çalışan hər kəsi peşə bayramı münasibətilə təbrik edirik.

# “Muğam aləmi” festivalının konsertləri




əvvəli səh. 1-də

Muğam və təsniflərin məharətlə ifa olunduğu musiqi axşamı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***

Festivalın iyunun 21-də təşkil edilən konsertləri də yaddaqalan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən “Cadenza” orkestri Beynəlxalq Muğam Mərkəzində çıxış etdi. Konsert çağdaş Azərbaycan və dünya musiqisinin sintezi üzərində qurulmuşdu. Musiqi axşamında Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə solistlər Samir Əsədov (violin), İlkin Həsənov (saz), Natəvan Həsənova (qanq), İsmayıl Zülfüqarov (tar), Afaq Qarayeva (piano), Ərol Rzayev (violonçel) və Xəyyam Quliyev (ud) Cavanşir Quliyev, Aydın Əzimov, Elvin Mirzəyev, Firudin Allahverdi, Tahir İbişov və Türkər Qasımzadənin əsərlərini səsləndirdilər. “Cadenza”nın bir-birindən maraqlı musiqi nömrələri tamaşaçılara unudulmaz anlar bəxş elədi.

***

Həmin gün Daş Salnamə Muzeyində Özbəkistan və Tacikistandan olan ifaçılar musiqisevərlərin qarşısına çıxdılar. Özbəkistanın Əməkdar artisti İlyas Arabov (vokal və dütar) özbək milli muğamını böyük sevgi və şövqlə nümayiş etdirdi. Səmərqənd şəhərində ənənəvi keçirilən “Şərq təranələri” festivalında UNESCO-nun xüsusi mükafatına layiq görülən ifaçı konsert zamanı Azərbaycan muğamına sevgisindən də söz açdı.

Tacikistanlı xanəndə Sardor Soliyevin adı azərbaycanlı muğamsevərlərə yaxşı tanışdır.





Tacik Dövlət Ansamblının solisti olan ifaçı “Muğam aləmi” V Beynəlxalq Musiqi Festivalında (2018) solo ifa nominasiyasında II yeri qazanmışdı. O, builki festivalda da yüksək peşəkarlıq göstərərək tamaşaçılardan alqış aldı.

Sardor Soliyev konsertdən öncə qəzetimizə açıqlamasında dedi: “Azərbaycana növbəti dəfə festivala dəvət edilməyim məni çox sevindirdi. Bu dəfə solo ifamla çıxış edirəm. Festivalın zəngin proqramı var və iştirakçılar üçün yaradılan şəraitə görə təşəkkür edirəm. Bu gün proqrama bizim zəngin muğam nümunələrimizi daxil etmişəm. Sonda isə həmkarım İlyas Arabovla birlikdə Səmərqənd şaşmakomunu ifa edəcəyik”.

***

İyunun 21-də daha bir konsert Azərbaycan Milli Konservatoriyasında təqdim edilib. Səhnəyə İordaniyanın tanınmış vokalçısı Macadi Nahhas və caz pianoçusu, “Cadenza” orkestrinin üzvü Tural Rafael çıxıblar. Macadi Nahhas Beyrut Musiqi Konservatoriyasının (Livan) məzunudur. O, musiqi karyerasına 1997-ci ildə “Jerash” festivalında ilk canlı ifası ilə başlayıb. Onun musiqisi ərəb melodiyalarını Kuba və latın cazı ilə birləşdirir. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məzunu olan Tural Rafael isə piano ifaları ilə tanınır. O, ölkəmizlə yanaşı, xaricdə də festivallarda çıxış edir.

***

İyunun 22-də beynəlxalq Muğam Mərkəzində misirli musiqiçi Mustafa Said (ud, vokal) ərəb musiqisinin təbliği məqsədilə yaratdığı ansamblla konsert verib. Proqramda Ansambl poeziya, tarix, ədəbiyyat və musiqidən ilhamlanaraq yeni kompozisiyalar təqdim edir.

Daha bir konsert M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında keçirilib. Burada Yunanıstanın “En Chordais” musiqi ansamblı çıxış edib. Salonikidə fəaliyyət göstərən ansambl Aralıq dənizi ölkələrinin müasir musiqi cərəyanlarını təbliğ edir.

22 iyunda Milli Konservatoriyada Hindistan və Azərbaycan musiqiçilərinin iştirakı ilə daha bir konsert proqramı təqdim olunub.

***

İyunun 23-də festival konsertəri mədəniyyət paytaxtımız Şuşada davam edəcək. Şuşa şəhərində bərpa olunmuş tarixi məkanlarda – Bülbülün Ev-Muzeyinin həyətində, Yaradıcılıq Mərkəzində, Xurşidbanu Natəvanın evinin qarşısında, və “Qarabağ” hotelinin qarşısındakı parkda eyni vaxtda muğam və poeziya ifaları səslənəcək.

İyunun 24-də Heydər Əliyev Mərkəzində Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri (dirijor Benjamin Yusupov – Tacikistan-İsrail və solist Mahmoud Turkmani (ud) – Livan-İsveçrə) çıxış edəcək.

Festivalın daha bir konserti Milli Konservatoriyada təşkil olunacaq. “Muğam hekayətləri” adlı layihədə Xalq artisti Teyyub Aslanov və pianoçu Nicat Aslanov çıxış edəcək. Layihənin musiqi məsləhətçisi Xalq artisti Salman Qəmbərovdur.

24-25 iyunda festivalın “Muğam marafonu” 24 saat layihəsi və İçərişəhərdə “Muğam saatı” açıq hava “Sound” performansı da davam edəcək.

Festivalın bağlanış mərasimi iyunun 25-də Heydər Əliyev Mərkəzində gerçəkləşəcək.

**Lalə**

# Muğamın toplama, qorunma, arxivləşmə və yayılma problemləri

## Festival çərçivəsində keçirilən elmi simpozium başa çatdı

Xəbər verdiyimiz kimi, “Muğam aləmi” VI Beynəlxalq Musiqi Festivalı müxtəlif ölkələrdən ifaçı və kollektivlərlə yanaşı, sənətşünasları da bir araya gətirib.

Festival çərçivəsində 20-22 iyun tarixlərində elmi simpozium keçirilib. Azərbaycan mütəxəssisləri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, İsrail, Kanada, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Yaponiyadan alimlərin qatıldığı, iyunun 20-də açılışı keçirilən simpozium ayın 21 və 22-də işini davam etdirib.

Simpoziumun ikinci günündə “Muğamın toplama, qoruma, arxivləşmə və yayılma problemləri” mövzusunda keçirilən sessiyada azərbaycanlı mütəxəssislərlə bərabər, Türkiyə, Böyük Britaniya, Özbəkistan və Qazaxıstandan olan alimlər də çıxış ediblər.

Gün ərzində “Mətn və musiqi”, “Muğam, dəsgah və xanəndə avazı”, “Muğamın toplama, qorunma, arxivləşmə və yayılma problemləri”, “Məqam musiqisinin ruhani və cismani təzahürləri” və “Məqam musiqisi elmi mənbələr işığında” mövzularında sessiyalar keçirilib.

Qərbi Kaspi Universitetinin dosenti, sənətşünaslıq üzrə elmlər doktoru Alla Bayramova “1920-ci illərdə Cənubi Qafqaz ekspedisiyalarının materiallarında muğam” mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, 1920-ci illərdə yeni sovet ideologiyasının təsiri altında muğam ifaçılığı sənətinə müəyyən qədər mənfi münasibət özünü göstərsə də, tanınmış muğam ifaçılarının səyləri nəticəsində bu sənət həm musiqi mədəniyyətində, həm də xalqın həyatında öz əhəmiyyətini qoruyub saxlaya bilib.

“Muğam dünya kolleksiyalarında: mədəni irsin qorunması və müdafiəsi” mövzusunda çıxış edən Qazax Milli İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fatima Nurlıbayeva bildirib ki, muğam Şərq ölkələrinin klassik xalq musiqisinin əsas janrıdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyüyü dəsgahdır.

Çıxışlarda qeyd olunub ki, xalqımızın milli sərvəti olan Azərbaycan muğamları, aşıq sənəti, ümumilikdə xalq musiqisi və ifaçılıq ənənələri müasir dövrdə mədəniyyətimizi dünya səviyyəsində tanıdaraq bu möhtəşəm sənət incilərinin inteqrasiya edilməsində zəruri rol oynayan faktordur. Muğam ifaçılığı dedikdə, burada həm instrumental, həm də vokal-instrumental ifa nəzərdə tutulur. Qədim dövrlərdən başlayaraq bizim dövrə qədər inkişaf edib müxtəlif dəyişiklik, əlavə və ixtisarlara məruz qalan muğam ifaçılığı müasir dövrümüzdə artıq bir sıra yeniliklərə addım atan, müxtəlif janrlarla sintezdə ifa və improvizasiya olunan janr kimi məşhurlaşır. Lakin Azərbaycanın ənənəvi professional musiqisi olan muğam sənəti tədris prosesində əsrlərdən gələn ənənə əsasında, yəni dildən-dilə, ifadan-ifaya şifahi şəkildə, ustad-şagird ənənəsinə uyğun ötürülür.

Tədbirdə jurnalistlərə açıqlama verən Kaliforniya Universitetinin (ABŞ) professoru, musiqişünas Möhsin Məhəmmədi muğam festivalının əhəmiyyətini yüksək qiymətləndirib. “Burada olmağımın səbəbi də məhz muğamdır. Mən İran musiqisini tədqiq edirəm və bu irsin Azərbaycan musiqisinə çox yaxın olduğunu düşünürəm. Həmçinin bir çox muğam janrını bəyənirəm. Dünən axşam Bakıda bir neçə muğam ifaçısını dinlədim və bir daha muğamın bənzərsizliyinin şahidi oldum”, – deyə musiqişünas bildirib.

Daha bir musiqişünas-alim Nissim Lugasi müsahibəsində yəhudilərin öz milli makam musiqisi barədə danışıb. Festivalın işini yüksək qiymətləndirən musiqişünas burada səslənən fikirlərin milli musiqi irsinin yaşadılması baxımından böyük əhəmiyyət daşıdığını söyləyib. Deyib ki, Bakıda təşkil olunan belə möhtəşəm tədbir bəşəri məna kəsb edən muğam fəlsəfəsinin gələcək nəsillərə çatdırılması baxımından olduqca təqdirəlayiqdir.

***

Elmi simpozium iyunun 22-də 4 sessiyada işini davam etdirdi. Musiqişünas Kəmalə Atakişiyevanın moderatorluğu ilə keçirilən “Muğamın toplama, qorunma, arxivləşmə və yayılma problemləri” mövzusunda birinci sessiyada Azərbaycan, Türkiyə, Yaponiya, Özbəkistan, Qazaxıstan və ABŞ-dən olan alimlərin məruzələri dinlənildi.

Şoitsa Qənixanova (Özbəkistan) “Makom fiksiyasının bəzi sistemlərinə dair”, professorlar İradə Köçərli və Vamiq Məmmədəliyev (Azərbaycan) “Milli musiqi irsinin qorunması və açılmamış yeni muğam səhifələri (Fikrət Əmirovun not əlyazmalarında “Şur” və “Rast” dəsgahları), Rüstəm Boltayev (Özbəkistan) “Tənbur notasiyasına nəzərən Xarəzmin altı yarım makomları” mövzusunda çıxış etdilər.

Yaponiyadan Sui Benq Tanın moderatorluğu ilə gerçəkləşən “Məqam tarixinə dair materiallar” adlı ikinci sessiyada Möhsin Məhəmmədi “Məqam əlaqələri: dəsgahın çoxməqamlı süita kimi formalaşması”, Villiam Sumits (Türkiyə) “Musiqi naşirləri, musiqiçilər və əlyazmalar: Osmanlı İmperiyasının son dövründə musiqinin dövriyyəsi və ticarəti”, yaponiyalı alim Qeniçi Tsuqe isə “Qopuz, şadarğu və tar” mövzusunda məruzələrini təqdim etdilər.

Günün üçüncü sessiyası professor Sənubər Bağırovanın moderatorluğu ilə keçirildi. “Məqam musiqisi tarixi retrospektivdə” mövzulu sessiyada Əmir Hüseyn Pircavadinin (ABŞ) “Dəsgahın 18 və 19-cu əsrlərdə yaranması və inkişafı”, Tacikistandan Faroqat Azizi və Sadulla Karimovun “Falak - dağ taciklərinin məqamı: tarix və müasirlik”, Kəmalə Atakişiyevanın “Azərbaycan dəsgahının tarixi təşəkkül prosesində milli-etnik ənənələrin rolu” mövzularında məruzələri dinlənildi.

Professor İradə Köçərlinin moderatorluğu ilə keçən sonuncu sessiya “Yeni tədqiqatlar və tədqiqat üsulları” mövzusuna həsr olunmuşdu.



Sessiyada Özbəkistandan Nilufər Botirova “Mukamat irsində sufiyana kəlam: tarix və müasirlik”, Gülhüseyn Kazımlı və Turan İbrahimov “Qədim Azərbaycan səs yazıları irsi üzrə yeni axtarışlar və tapıntılar”, Pikə Axundova-Talıblı “Azərbaycan muğamlarında qeyri-xətti təfəkkür tərzinin inikası (“Rast” və “Şur” muğamları əsasında), Azərbaycan və Fransanı təmsil edən musiqişünas İlxas Məmmədov isə “Karnatik raqa musiqi tədrisində praktik məşqlərin əsas prinsipləri və onların Azərbaycan muğam tədrisi ilə müqayisəsi” mövzularında məruzə etdilər.

### “Bu cür layihələr Şərqin mədəniyyətini təbliğ edir”

Simpoziumun qonağı olan Tacikistan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru Sadulla Karimov qəzetimizə açıqlamasında tədbiri yüksək dəyərləndirdi. Bakıda simpoziumda iştirakından məmnunluğunu ifadə edən alim dedi: “Biz bilirik ki, muğam Azərbaycanın ən qədim milli irsidir. İstərdik ki, biz də bu muğam sənətinə öz töhfəmizi, tacik muğam ənənələri haqqında məlumatları bölüşək. Simpoziumda çıxışımızda ən qədim milli ənənəvi musiqimiz olan “falak” haqqında məlumat verdik. Çox şadam ki, burada dünyanın müxtəlif ölkələrindən alim və tədqiqatçılar bir ayara gəlib maraqlı mövzularda məruzələr təqdim edirlər. Bilmədiklərimizi öyrənirik. Bu mötəbər tədbirə görə təşkilatçılara təşəkkür edirəm”.

Villiam Smits ABŞ-dən olsa da, İstanbulda yaşayır. Deyir ki, Azərbaycan muğamını az-çox bilsə də, ölkəmizə hər gəlişində muğamı dinlədikcə daha çox həyəcan keçirir. Bu onun ölkəmizə dördüncü gəlişidir. İlk dəfə 2011-ci ildə beynəlxalq muğam festivalı çərçivəsində təşkil edilən beynəlxalq muğam müsabiqəsində münsif kimi iştirak edib.

Tacikistandan olan daha bir alim Sultanali Kudoyberdiev bildirir ki, belə bir tədbirin keçirilməsi təkcə Azərbaycan üçün deyil, bütün iştirakçı ölkələr üçün inkişaf sayıla bilər. Heydər Əliyev Fondu tərəfindən təşkil edilən bu festival musiqi, muğam vasitəsilə dünyanın müxtəlif yerlərindən musiqişünas və alimləri birləşdirir və Şərq aləminin mədəniyyətini təbliğ edir.

**L.Azəri**

# ICESCO Azərbaycanla əməkdaşlıqdan məmnundur

## Salim bin Məhəmməd əl-Malik: "Bu əməkdaşlıq bir çox ölkələr üçün uğurlu model ola bilər"



*əvvəli səh. 1-də*

Salim bin Məhəmməd əl-Malik bu əməkdaşlığın bir çox ölkələr üçün uğurlu model ola biləcəyini vurğulayıb, təşkilatın gələcək üçün nəzərdə tutulan əsas strateji istiqamətləri, hazırda həyata keçirilən təşəbbüslər, proqramlar və layihələr barədə məlumat verib. O, innovasiya, təhsil sistemlərinin inkişaf etdirilməsinin, həmçinin birgəyaşayış və sivil dialoq dəyərlərinin möhkəmləndirilməsinin prioritet istiqamətlərdən olduğunu bildirib.

Mədəniyyət naziri Adil Kərimli ICESCO-nun Azərbaycanın təhsil, elm və mədəniyyət sahələrində strateji tərəfdaşı olduğunu, iki tərəf arasında əlaqələrə Prezident İlham Əliyev və Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən böyük dəstək göstərildiyini qeyd edib. Bakıda keçirilən ənənəvi Dünya Mədəniyyətlərarası Dialoq Forumunda ICESCO-nun əsas tərəfdaş olduğunu deyən nazir 2024-cü ilin may ayına planlaşdırılan növbəti Forum çərçivəsində də əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə ölkəmizlə təşkilat arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən Bakıda ICESCO-nun Regional Ofisinin açılması, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, ICESCO-nun tərəfdaş olduğu "Bakı Prosesi" çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, ölkəmizin mədəniyyət nümunələrinin İslam Dünyası İrsi Siyahısına daxil edilməsi və digər məsələlər müzakirə olunub.

Görüşdən sonra mədəniyyət naziri Adil Kərimlinin başçılıq etdiyi nümayəndə heyəti ICESCO-nun baş qərargahındakı "Peyğəmbərin Yolu" muzeyi ilə tanış olub. 2022-ci ildə yaradılan muzeyin ekspozisiyasında Məhəmməd Peyğəmbərin həyatı, eləcə də yaşadığı Məkkə və Mədinə şəhərləri ilə bağlı dəyərli eksponatlar, tarixi kitablar əyani və rəqəmsal formada sərgilənir.

***

Qeyd edək ki, ölkəmizlə ICESCO arasında 30 ildən artıq dövrü əhatə edən əməkdaşlıq mövcuddur. Azərbaycan Respublikasının üzv olduğu ilk beynəlxalq təsisat İslam Əməkdaşlıq Təşkilatı (dekabr 1991) olub və ölkəmiz bu təşkilatın nəzdində yaradılan (1982) İCESCO ilə də sıx əlaqələr qurub. ICESCO Ermənistanın Azərbaycana hərbi təcavüzü və işğal zamanı ölkəmizin mədəni irsinə qarşı törədilən vandalizmlə bağlı daima prinsipial mövqe nümayiş etdirərək bu əməlləri kəskin şəkildə pisləyib.

Təşkilat 2020-ci ilin Vətən müharibəsi dövründə də Azərbaycanın haqq işini dəstəkləyib və İCESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik tarixi Zəfərlə bağlı Prezident İlham Əliyevə göndərdiyi təbrikdə bunu bir daha vurğulayıb. Vətən müharibəsindən qısa müddət sonra, 2021-ci ilin yanvarında Azərbaycan Prezidentinin dəvətinə əsasən baş direktorun rəhbərliyi ilə ICESCO nümayəndə heyətinin ölkəmizə



gəlməsi və azad olunmuş ərazilərə ilk beynəlxalq missiya olaraq səfər etməsi də təşkilatla sıx tərəfdaşlığın göstəricisidir.

Azərbaycan-ICESCO münasibətlərinin yüksək səviyyədə olması təşkilat tərəfindən 2009-cu ildə Bakı şəhərinin, 2018-ci ildə Naxçıvan şəhərinin "İslam mədəniyyətinin paytaxtı" elan edilməsində də özünü göstərib. 2024-cü ildə isə bu missiyanı Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinin daşıyacağı gözlənilir. Ölkəmiz tərəfindən bununla bağlı nominasiya sənədi 2022-ci ildə təşkilata təqdim edilib.

ICESCO Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən elan edilmiş mədəniyyətlərarası dialoq naminə "Bakı Prosesi"ndə fəal tərəfdaş kimi iştirak edir. 2015-ci ilin noyabrında ICESCO Baş Konfransının 12-ci sessiyası və təşkilatın İcraiyyə Şurasının 36-cı iclası Azərbaycan Prezidentinin himayəsi ilə Bakıda keçirilib.

2019-cu ildə Azərbaycandan İçərişəhər, Şəkinin tarixi mərkəzi və Qobustan qoruğu ICESCO nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsinin (IWHC) tərtib etdiyi İslam Dünyası İrsi Siyahısına daxil edilib.

Azərbaycanda ICESCO-nun Regional Ofisinin yaradılması bu münasibətlərin daha da güclənməsinə təkan verəcək. Qeyd edək ki, bununla bağlı saziş 2022-ci ilin mayında Bakıda imzalanıb, həmin ilin oktyabrında sazişin təsdiq edilməsi barədə müvafiq qanun Prezident İlham Əliyev tərəfindən imzalanaraq qüvvəyə minib. 2022-ci ilin dekabrında isə Azərbaycan Respublikası ilə ICESCO arasında əməkdaşlığın dərinləşdirilməsinə dair Fəaliyyət Planı imzalanıb.

# "Yaradanlar" filmi "Heydər Əliyev İli" münasibətilə nümayiş olundu

Müasir Azərbaycan memarlığının banilərindən olan Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və fəaliyyətindən bəhs edən "Yaradanlar" sənədli filmi iyunun 21-də "Heydər Əliyev İli" münasibətilə Nizami Kino Mərkəzində təqdim olundu.






Azərbaycan Memarlar İttifaqının (AMİ) təşəbbüsü, Mədəniyyət Nazirliyinin sifarişi ilə 2020-ci ildə "Salnaməfilm" studiyasında istehsal olunmuş filmin premyerası 2021-ci ilin dekabrında olub. Filmin ideya müəllifi AMİ-nin sədri Elbay Qasımzadə, quruluşçu rejissoru Şamil Əliyev, ssenari müəllifi Natiq Rəsulzadə, təsvir rejissoru Rüfət Süleymanov, bəstəkarı Azər Hacıəsgərli, prodüseri Nazim Hüseynovdur.

Rejissor Şamil Əliyev qeyd etdi ki, ekran əsəri indiyədək 100-dən çox festivalda iştirak edib, bir sıra mükafatlara layiq görülüb. Bu, Memarlar İttifaqı ilə birgə ərsəyə gətirilən ikinci ekran əsəridir. 2018-ci ildə birgə "Memar" filmi lentə alınıb.

Ssenari müəllifi, Xalq yazıçısı Natiq Rəsulzadə dedi ki, filmin çəkilişi zamanı incə detal və elementlər də nəzərə alınıb: "Biz çalışmışıq ki, filmdə Mikayıl Hüseynov və Sadıq Dadaşovu peşəkar memardan başqa, onların bir insan kimi xarakterlərini də açıb tamaşaçılara göstərək. Filmdə hər iki memarın yaradıcılıqları ilə bərabər, həyat yolları barədə də məlumatlar yer alıb".

Çıxışlardan sonra "Yaradanlar" sənədli filmi nümayiş olundu. Filmdə görkəmli memarlar, akademiklər Mikayıl Hüseynov (1905-1992) və Sadıq Dadaşovun (1905-1946) həyat və yaradıcılığı fonunda XX əsrdə kommunist ideologiyasının Azərbaycan xalqının mədəni irsinə, əxlaqi-mənəvi dəyərlərinə vurduğu zərbə diqqətə çatdırılır. 1937-ci il repressiyasında onların qohumlarından olan ziyalıların əksəriyyəti məhv edilib. Eyni zamanda çox yaxın dost olan bu iki sənətkar ömürlərinin bir hissəsini qorxu və mənəvi sıxıntılarla yaşamağa məcbur olublar.

Filmdə Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ziyalıları siyasi rejimin təqiblərindən qoruyaraq onların yaşayıb-yaratması üçün qayğısını əsirgəmədiyi də vurğulanır.

**Nurəddin**



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yazıçı-dramaturq Əmir Pəhləvanın "Sevənlərindir dünya" əsəri əsasında hazırlanan məzhəkənin premyerası keçirilib.

# Musiqili Teatrda "Sevənlərindir dünya"

21-22 iyun tarixlərində nümayiş olunan məişət komediyasının ana xəttini iki gəncin – bakılı Şəriflə özbək qızı Müyəssərin ülvi məhəbbəti təşkil edir. Tamaşanın əsas motivi dünyanı xilas edən məhəbbətə olan inam hissidir və bu, iki türk gəncinin timsalında təqdim edilir.

Tamaşanın quruluşçu rejissoru Elməddin Dadaşov, baletmeysteri Kamilə Əliyeva, səhnə tərtibatçısı və geyim üzrə quruluşçu rəssamı Sənan Fətullazadə, musiqi tərtibatçısı Məhəmməd Məmmədov, rejissor assistenti Tamilla Aslanovadır.

Rolları Əməkdar artistlər Nadir Xasiyev, İqrar Salamov, aktyorlar Telli Hüseynova, Əliməmməd Novruzov, Rəsmiyyə Nurməmmədova, Elçin İmanov, Hüseyn Əlili, Gülnarə Əzizova, Ruslan Mürsəlov, Güldanə Əzimova, Emin Zeynallı, Nəzrin İsmayılzadə, Cəlal İsayev, Ayan Qurbanova, Ofeliya Məmmədova, Nərmin Əliyeva, Eleanora Abbasova, Murad Əliyev və Cəbrayıl Cəbrayılov oynayırlar.

Teatrın xor və balet truppasının çıxışı da tamaşaya özünəməxsus rəng və çalarlar əlavə edir. Tamaşada Azərbaycan və özbək xalq musiqisindən, milli rəqslərindən və folklor nümunələrindən istifadə olunub. "Sevənlərindir dünya" həm də iki qardaş xalqın adət-ənənələrindəki yaxınlıq və doğmalığı nümayiş etdirir.

İlk nümayişdən sonra pyesin müəllifi Əmir Pəhləvan deyib: "Bu, mənim teatr səhnəsində tamaşaya qoyulan üçüncü əsərimdir. Bundan əvvəl Bakı Bələdiyyə Teatrında "İnsan və iblis", Akademik Musiqili Teatrda isə "İstədiyim yar idi" əsərlərim oynanılıb. Bu gün səhnəyə qoyulan tamaşada zəhməti keçən teatrın bütün kollektivinə təşəkkür edirəm. Güman edirəm ki, onlar əsasında iki gəncin sevgisi dayanan əsərə maraqlı və baxımlı səhnə həyatı veriblər".

# "Yuğ" festivalda mükafat alıb

Azərbaycan Dövlət Yuğ Teatrı Gürcüstanın Kutaisi şəhərində təşkil olunan "Teatral İmereti" festivalında çıxış edib.

Teatrdan bildirilib ki, ənənəvi festivala 20-dən çox ölkə qatılıb. "Yuğ" teatrı V.Şekspirin "III Riçard" əsəri əsasında bolqarıstanlı rejissor Hristo Stoiçevin quruluş verdiyi "Lənət" tamaşasını nümayiş etdirib. Səhnə əsəri beynəlxalq festivalın ən orijinal tamaşası seçilib və mükafat qazanıb.

Tamaşada rolları Əməkdar artist Qasım Nağı, aktyorlar Oqtay Mehdiyev, Natəvan Qeybani,



Tərənə Ocaqverdiyeva və Zümrüd Qasımova ifa ediblər.

# Mərakeşlə mədəniyyət sahəsində əlaqələr müzakirə olunub

## Qarşılıqlı mədəniyyət günlərinin mühüm rolu qeyd edilib

Mərakeş Krallığında səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə Mərakeşin gənclər, mədəniyyət və kommunikasiya naziri Mohamed Mehdi Bensaid arasında görüş keçirilib.



Görüş zamanı iki dost ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə yüksələn xətlə inkişaf etdiyi vurğulanıb, xalqlar arasında əlaqələrin dərinləşdirilməsində mədəniyyətin oynadığı vacib rola istinad edilib. Qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin hər iki ölkənin zəngin mədəni irsinin, incəsənətinin tanıdılması baxımından mühüm rolu qeyd olunub, mədəniyyət təsisatları arasında təmasların daha da intensivləşdirilməsinin zəruriliyi ifadə edilib. Bu xüsusda əlaqələrin daha da inkişaf etdirilə biləcəyi vurğulanıb. Eyni zamanda müvafiq müqavilə bazasının təkmilləşdirilməsinin önəmi qeyd olunub. Beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında, müxtəlif sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əməkdaşlığın əhəmiyyətinə diqqət çəkilib.

Görüşün sonunda qarşılıqlı səfərlərin əlaqələrin daha da dərinləşdirilməsinə töhfə verdiyi vurğulanıb və Azərbaycan mədəniyyət nazirinin Mərakeşə səfərinin bu məqsədə xidmət edəcəyinə əminlik ifadə edilib. Öz növbəsində, Adil Kərimli mərakeşli həmkarını Azərbaycana səfərə dəvət edib.

# Berlində "Azərbaycanda yəhudi həyatı" adlı tədbir keçirilib

## Azərbaycan və İsrail səfirliklərinin ilk birgə layihəsi

*əvvəli səh. 1-də*

Səfir Nəsimi Ağayev çıxışında iştirakçıları ölkəmizdə yaşayan yəhudilər, onların tarixi, Azərbaycandakı multikulturalizm və dinlərarası harmoniya mühiti, İsrail ilə qurulmuş dostluq münasibətləri və strateji tərəfdaşlıq barədə məlumatlandırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin Azərbaycanda multikulturalizm və dinlərarası harmoniya mühitinin daha da dərinləşməsinə və inkişafına yönəldiyi vurğulanıb.

İsrail səfiri Ron Prozor çıxışında Azərbaycan və İsrail arasında yüksək səviyyəli münasibətlərdən söhbət açıb və ölkəmizin İsraildə səfirliyinin təsis edilməsinin bu münasibətləri yeni səviyyəyə qaldırdığını vurğulayıb. Qeyd edib ki, Azərbaycanda yəhudi icmasının yaşaması müsəlmanlar ilə yəhudilərin dinc şəkildə birgəyaşayışına gözəl bir nümunədir.



Almaniya Yəhudiləri Mərkəzi Şurasının icraçı direktoru Daniel Botman, Berlin Yəhudi İcmasının sədri Qideon Yoffe və Pestalotsi sinaqoqunun baş ravvini Yonah Zivers çıxışlarında Azərbaycanda mövcud olan tolerantlıq və dinlərarası harmoniya mühitinin çox təqdirəlayiq hal olduğunu bildiriblər.

Tədbir çərçivəsində Milli Məclisin deputatı Anatoliy Rafailov, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Bakı Avropa Yəhudiləri Dini İcmasının sədri Aleksandr Şarovskinin iştirakı ilə panel müzakirələr keçirilib.

Almaniyada yaşayan həmyerlimiz skripkaçı Fəridə Rüstəmova və İzidoro Abramoviçin rəhbərlik etdiyi Pestalotsi sinaqoqunun xor kollektivi Azərbaycan, yəhudi və Avropa musiqi nümunələrindən ibarət konsert proqramı ilə çıxış ediblər.

# "Laçına qayıdan yol" – dirçələn yurd yerində ilk plener

Laçın şəhərində "Art Passage" yaradıcılıq mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə gənc rəssamların pleneri keçirilir. 20-24 iyun tarixlərini əhatə edən "Laçına qayıdan yol" adlı layihədə Azərbaycan Rəssamlıq Akademiyasının 17 məzunu müasir şəhər kimi yenidən canlanan Laçının gözəl mənzərələrindən etüdlər yaradırlar.



30 il davam edən işğal boyunca Qarabağı dahi Səttar Bəhlulzadənin, Mikayıl Abdullayevin və əslən laçınlı Nadir Əbdürrəhmanovun tablolarından izləyən gənc rəssamlar özləri indi Laçındadırlar. Artıq nə xatirələrdən, nə fotolardan – gözləri qarşısında açılan naturadan yeni əsərlər yaradırlar. Bu mənada gənc rəssamların Laçında keçirilən ilk pleneri sənət hadisəsi sayıla bilər.

"Art Passage" yaradıcılıq mərkəzinin təşkilatçılığı ilə növbəti mərhələdə Azərbaycanın məşhur rəssamlarının iştirakı ilə Laçında simpoziumların və beynəlxalq plenerlərin keçirilməsi nəzərdə tutulur.

# Paytaxt kuklaçıları Şabranda və Qubada tamaşa göstəriblər

Mədəniyyət Nazirliyinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə həyata keçirdiyi silsilə tədbirlər çərçivəsində Azərbaycan Dövlət Kukla Teatrının kollektivi iyunun 21-də Şabran və Quba rayonlarına səfər edib.

Teatr hər iki rayonun mədəniyyət mərkəzlərində repertuarındakı baxımlı səhnə nümunələrindən olan "Gözəl və Bədheybət" tamaşasını təqdim edib. Madam Leprens De Bomonun məşhur əsəri əsasında hazırlanan eyniadlı səhnə işinin quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Cahangir Zülfüqarovdur. Rolları Elnur Abbasquliyev, Səriyyə Mansurova, Rəhim Rəhimov, Aygül Ağayeva, Araz Həsənli, Cavid İbrahimov və Könül Nəsibova ifa edirlər.



Birhissəli uşaq tamaşasında fərqli texnikalarda hazırlanmış kuklalardan, eləcə də canlı planda kukla oyunu sintezindən istifadə olunur. Musiqi və xoreoqrafik elementlərlə zəngin səhnə əsərində bir qızın timsalında xoş rəftar və daxili gözəlliyin bütün maneələri aşması nümayiş etdirilir. Bu nümunə vasitəsilə uşaqlara zahiri gözəlliklə yanaşı, səbir və ədalət hissinin də hər məqamda ən yaxın yol yoldaşı olduğu göstərilir.

Hər iki rayonda reallaşan nümayiş yerli sənətsevərlər, xüsusən də balaca tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Quba sakinləri uşaqlarda teatra maraq yaratmaq üçün belə nümayişlərin mütəmadi olmasını arzu ediblər.

Diqqət və marağa görə təşəkkür edən Azərbaycan Dövlət Kukla Teatrının direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə müxtəlif layihələr, sosial-mədəni aksiyalar çərçivəsində bölgələrdə mütəmadi olduqlarını, yeni mövsümdən həyata keçiriləcək ölkədaxili qastrollar siyahısına Qubanın da daxil ediləcəyini deyib.

# Lənkəran teatrının müraciəti ilə yeni ixtisas üzrə kadrlar hazırlanacaq

Yeni tədris ilindən Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində "interyer və eksteryerin bədii tərtibatı" ixtisası üzrə qrup fəaliyyətə başlayacaq. Mərkəzin direktoru Afər Həmidoğlu bu barədə Lənkəran Dövlət Dram Teatrının rəhbərliyi ilə görüşdə bildirib.

O, teatrın belə bir ixtisasın açılması ilə əlaqədar fevral ayında etdiyi müraciətə müsbət yanaşdıqlarını və məsələni Elm və Təhsil Nazirliyi ilə razılaşdırdıqlarını deyib. Sentyabr ayından 20 nəfərlik qrup yeni ixtisas üzrə təlimlərə cəlb olunacaq.

Lənkəran Dövlət Dram Teatrının direktor vəzifəsini icra edən İntiqam Hacılı müraciətə diqqət göstərdiklərinə görə Elm və Təhsil Nazirliyinə və Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinə təşəkkürünü ifadə edib.

Teatrla Peşə Təhsil Mərkəzi arasında müvafiq müqavilə də bağlanılıb. Mərkəz həm Lənkəran teatrı, həm də bölgənin mədəniyyət müəssisələri üçün kadrlar hazırlayacaq.

Mərkəzin direktoru Afər Həmidoğlu bildirib ki, interyer və eksteryerin bədii tərtibatı ixtisası üzrə kadr hazırlığında Lənkəran Dövlət Dram Teatrının rəssam və rejissorları da yaxından iştirak edəcəklər.

# Qarabağ və Şərqi Zəngəzur arxeoloji ekspedisiyası daimi fəaliyyət göstərəcək

## Xəzər sahilində də tədqiqatlar aparılacaq

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda daimi fəaliyyət göstərən Qarabağ və Şərqi Zəngəzur arxeoloji ekspedisiyasının yaradılması haqqında qərar qəbul olunub.

Bu barədə məsələ AMEA Rəyasət Heyətinin iclasında müzakirə olunub. AMEA-nın prezidenti akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən tədbirlərin mühüm hissəsini Qarabağın və Şərqi Zəngəzurun mədəniyyətinin öyrənilməsi təşkil edir. Bu məqsədlə Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Qarabağ və Şərqi Zəngəzur ekspedisiyası təşkil edilib. Arxeoloji tədqiqatların ardıcıl və sistemli şəkildə təşkil edilməsi üçün sözügedən ekspedisiyanın institutda daimi fəaliyyət göstərməsi zərurəti yaranıb.

İclasda Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Xəzər arxeologiyası şöbəsinin yaradılması barədə də qərar qəbul edilib. Qeyd olunub ki, Azərbaycanda sualtı arxeoloji tədqiqatlar sonuncu dəfə 1968-1986-cı illərdə həyata keçirilib. Xəzər dənizində suyun səviyyəsinin enməsi ilə əlaqədar dənizdə və sahilboyu ərazilərdə sualtı arxeoloji istiqamətdə tədqiqatların aparılması üçün yenidən əlverişli şərait yaranıb.

# Yaradıcılıq müsabiqələri başa çatıb

Naxçıvan MR Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" münasibətilə keçirilən uşaq, musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında yaradıcılıq müsabiqələri (ifaçılıq, rəqs, rəsm) başa çatıb.

İyunun 20-də C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında müsabiqələrin yekunu və qaliblərin mükafatlandırılması mərasimi təşkil edilib.

Naxçıvan MR mədəniyyət nazirinin müavini Həsən Kərimov çıxış edərək müsabiqə haqqında məlumat verib, qalibləri təbrik edib. Bildirilib ki, müsabiqədə 20 nominasiya üzrə 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbinin minə yaxın şagirdi iştirak edib.

Sonra qaliblər mükafatlandırılıb. Qalib olan ayrı-ayrı iştirakçılarla yanaşı, uğur qazanmış ifaçıların sayına görə fərqləndiyinə və iştirakçıları yüksək peşəkarlıqla müşayiət etdiyinə, müsabiqənin təşkilində fərqləndiklərinə görə bir sıra uşaq musiqi və incəsənət məktəbi və müəllimlər də təltif ediliblər. Naxçıvan şəhər Uşaq musiqi və incəsənət məktəbi qalib gələn iştirakçıların sayına görə "İlin məktəbi" elan edilib, diploma layiq görülüb.

Sonda müsabiqə qalibləri konsert proqramı ilə çıxış edib.

# "Heydər Əliyev İli" tədbirləri davam edir






Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev – 100 və Azərbaycan mədəniyyəti" adlı sərginin açılışı olub. Ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, Ulu öndərin mədəniyyət, incəsənət, teatr xadimləri ilə tarixi görüşlərini özündə əks etdirən fotolardan ibarət sərgi iştirakçılar tərəfindən maraqla qarşılanıb. Sərgi iyulun 1-dək ziyarət üçün açıq olacaq.

***

Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbində hesabat konserti keçirilib. "Xarı bülbül" xoru, "Saməyi-şəms" xalq çalğı alətləri ansamblı, fortepiano, skripka, xanəndə və vokal sinfinin şagirdləri maraqlı musiqi nömrələri ilə çıxış ediblər. Sonda tədris ilində öz fəallığı ilə seçilən müəllim və şagirdlər təşəkkürnamə ilə təltif edilib.

***

Hacıqabul rayon Heydər Əliyev Mərkəzi tərəfindən keçirilən "Heydər Əliyev xatirələrdə" layihəsi davam edir. Layihənin növbəti qonağı sabiq deputat Səmayə Piriyeva olub. Səmayə Piriyeva Ulu öndərlə görüşlərin-





dən və onunla bağlı xoş xatirələrindən söhbət açıb. O, Heydər Əliyevlə birlikdə çəkilmiş şəkillərini mərkəzin fonduna hədiyyə edib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin M.Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbi tərəfindən Şəmkir rayon Heydər Əliyev Mərkəzində Ümummilli liderin 100 illiyinə həsr olunmuş konsert təşkil edilib. Respublika və beynəlxalq müsabiqələr laureatı olmuş şagirdlərinin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib. Sonda təcrübə mübadiləsinin aparılması məqsədilə Şəmkir şəhər Uşaq musiqi məktəbində görüş gerçəkləşib.

Gədəbəy rayon Heydər Əliyev Mərkəzi, rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının inklüziv inkişafı sahəsində dünya liderliyini təmin edən yeni idarəçilik texnologiyaları" mövzusunda seminar keçirilib. DİA-nın rektoru akademik Urxan Ələkbərov seminarda Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi yeniliklərdən danışıb, Ulu öndərlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

***

Qax rayon Heydər Əliyev Mərkəzində də eyni adlı sərgi açılıb. İyulun 20-dək davam edəcək sərgidə Heydər Əliyevin mədəniyyət adamlarına diqqət və qayğısını göstərən fotolar nümayiş olunur.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər

Lənkəran şəhər Uşaq rəssamlıq məktəbinin şagirdləri üçün açıq havada sərgi-plener təşkil olunub. 20 şagirdin iştirak etdiyi sərgi-plenerdə yağlı, akril və sulu boyalar vasitəsilə kətan, və kağız üzərində mənzərələr əks olunub.

***

Ağdam rayon R.Məmmədov adına Döyüş Şöhrəti Muzeyində rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə Birinci Qarabağ müharibəsi şəhidi Elmdar Vəliyevin xatirəsinə həsr edilmiş "Qəhrəmanlar unudulmur!" adlı anım tədbiri keçirilib. Çıxış edənlər "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş şəhidin döyüşlər zamanı göstərdiyi qəhrəmanlıq-









lardan danışıblar. Sonda şəhidin həyat yolundan bəhs edən videoçarx nümayiş olunub.

***

Balakən rayon Qullar kənd Sənətkarlıq evində "Vətən mənə oğul desə..." başlığı altında çağırışçı gənclərlə görüş keçirilib. Çıxış edənlər ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsinin daim diqqət mərkəzində olduğunu qeyd ediblər. Sonda çağırışçı gənclər hərbi xidmətə yola düşəcəyi üçün çox sevincli olduqlarını, əsgəri borclarını layiqincə yerinə yetirəcəklərini bildiriblər.

***

Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzinin "Dostluq" Mədəniyyət evinin hazırladığı "Onlar bir incidir" adlı layihənin növbəti tədbiri keçirilib. Layihənin budəfəki qonağı Əməkdar mədəniyyət işçisi, "Tərəqqi" medallı şair Əşrəf Veysəlli olub. Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev qonaqları salamlayıb, şairə yaradıcılıq uğurları arzulayıb, hədiyyələr təqdim edib. Sonra şairin yaradıcılığı haqqında söhbət açılıb, şeirləri səsləndirilib.

***

Ağstafa Dövlət Rəsm Qalereyasının əməkdaşları "Vətən müharibəsinin tarix yazan qəhrəmanları" devizi ilə rayonun Vurğun qəsəbəsində "Şəhidlər bulağı"nı ziyarət ediblər.

Qazax rayon E.Hüseynov adına Mərkəzi Kitabxanada Xalq yazıçısı, ssenarist İsa Hüseynovun (Muğanna; 1928-2014) anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirilib. Bir qrup tələbənin də iştirak etdiyi tədbirdə yazıçının yaradıcılığının ideya-sənətkarlıq xüsusiyyətlərindən söz açılıb, əsərlərinin oxucuların qəlbinə yol tapdığı vurğulanıb. Bildirilib ki, ədibin ssenariləri əsasında çəkilən filmlər Azərbaycanın kino salnaməsini zənginləşdirib.

# "Bəşəriyyətin düçar olduğu bəla"



26 iyun Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günüdür. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən qeyd olunan gün münasibətilə bölgələrdə bir sıra tədbirlər keçirilib.

Masallı rayon Mərkəzi Kitabxanasında "Bəşəriyyətin düçar olduğu bəla" adlı tədbir təşkil olunub. Qeyd olunub ki, narkomaniyanın ictimai təhlükəliliyi insanların fiziki və psixi sağlamlığının ciddi şəkildə pozulmasında, onlarda ruh düşkünlüyünün, intellektual səviyyənin, ictimai fəallığın aşağı düşməsində, sosial əlaqələrin daralmasında və parçalanmasında başlıca rol oynayır. Bu isə insanın həm mənəvi, həm də cismən məhvi deməkdir.

***

Ucar Tarix-Diyarşünaslıq Muzeyində "Narkomaniyaya qarşı mübarizə hər kəsin borcudur!" mövzusunda maarifləndirici tədbir keçirilib. Narkomaniyanın yayılmasının xalqın sağlam həyat tərzi üçün təhlükə törətdiyi, narkotik maddələrin qəbul edilməsinin insanı fiziki və psixoloji cəhətdən məhv olmağa sürüklədiyi və digər mənfi təsirləri barədə çıxışlar edilib.

***



Samux rayon Mədəniyyət Mərkəzində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib. Narkotik vasitələrdən istifadə və onun yaratdığı fəsadlardan bəhs edən videoçarx nümayiş olunub. Yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması, gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi istiqamətində ölkədə həyata keçirilən islahatlardan, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"ndan bəhs edilib.

***

Cəbrayıl rayon Mədəniyyət evinin təşkilatçılığı ilə Çərəkən kənd klubunda "Narkomaniya əsrin bəlasıdır" adlı tədbir keçirilib. Rayon İcra Hakimiyyəti, hüquq-mühafizə



orqanlarının nümayəndələri, idarə, müəssisələrin rəhbərlərinin də iştirak etdiyi tədbirdə bəşəri bəlanın ağır fəsadlarından söz açılıb.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında keçirilən tədbirdə çıxış edənlər bildiriblər ki, bu gün bəşəriyyəti düşündürən, ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyadır. Sonda "Narkomaniya bəşəriyyətin faciəsidir!" adlı videoçarx izlənilib, "Ağ ölümə yox deyək!" adlı sərgiyə baxış olub.

***

Ağstafa Dövlət Rəsm Qalereyasında "Narkomaniyaya qarşı mübarizədə mədəniyyət müəssisələrinin rolu" başlıqlı tədbir keçirilib. Narkomaniyaya qarşı mübarizənin gücləndirilməsi və qarşısının alınmasına dair maarifləndirici söhbətlər aparılıb.

Qazax Dövlət Rəsm Qalereyasında "Narkotiklər bütün dünyanın bəlasıdır!" adlı dəyirmi masa təşkil edilib. Narkomaniyanın səbəbləri, insanların həyat və sağlamlığına, mənəvi-əxlaqi dəyərlərə və sosial-iqtisadi inkişafa mənfi təsirləri barədə məlumat verilib.

**Hazırladı: N.Məmmədli**

# Azərbaycan muğamı və hind musiqisinin sintezi

## Musiqi festivalında "Muraaqam" layihəsi təqdim edilib



"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert proqramı iyunun 20-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında təşkil olunub.

"Muraaqam" adlı konsertdə Xalq artisti, xanəndə Səkinə İsmayılova və Hindistandan klassik musiqi ifaçısı Vasumathi Badrinathan, violin ifaçısı Jyotsna Srikanth çıxış ediblər.

Konsertdən əvvəl mediaya müsahibə verən Xalq artisti Səkinə İsmayılova bu layihənin bir neçə il öncə ərsəyə gəldiyini diqqətə çatdırıb: "Biz bu layihə ilə Hindistanın bir neçə şəhərində birgə çıxış etmişik. Bu gün isə öz ölkəmizdə tamaşaçılar qarşısına birgə çıxırıq. Burada Hindistan musiqiçiləri ilə bizim "Rast" muğamı üzərində qurulan bir kompozisiya təqdim edirik. Onlar raqa, biz isə muğam ifa edəcəyik. Ümumilikdə bu, ənənəvi musiqi sintezi olacaq. Burada mənimlə birgə çıxış edən solist Vasumathi Badrinathan xüsusi həssaslığı ilə seçilən çoxistiqamətli ifaçıdır. Cənubi Hindistan klassik musiqi ifaçısı Vasumathi öz oxuma üslubunda ənənə və müasirliyin gözəl vəhdətini yaradır. O, Avropa və Asiya, Sakit Okean hövzəsi ölkələrində qastrol səfərlərində çoxsaylı konsertlər verib".

Xatırladaq ki, "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir. Festival iyunun 25-dək davam edəcək.

Azərbaycan muğam musiqisi ilə klassik hind musiqisi – raqanın (raqa – sanskrit dilində rəng, çalar mənası verir) sintezi böyük maraqla qarşılanıb.

# Filarmoniyada piano musiqisi axşamı

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin (dirijor Əməkdar artist Əyyub Quliyev) konserti keçirilib.



İyunun 20-də gerçəkləşən musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, tanınmış mədəniyyət və incəsənət xadimləri də olub.

Konsertdə orkestrin müşayiəti ilə Xalq artistləri Ülviyyə Hacıbəyova, Yeganə Axundova, beynəlxalq müsabiqələr laureatı Səidə Tağızadə və Prezident təqaüdçüsü Vurğun Vəkilov (hamısı piano) çıxış ediblər.

Qərbi Avropa bəstəkarlarının yaradıcılığına müraciət olunan konsert alqışlarla qarşılanıb.

# Azər Dadaşovun Ulu öndər Heydər Əliyevə həsr etdiyi əsərlər səslənib

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) silsilə tədbirlər həyata keçirilir.

Görkəmli bəstəkar, Xalq artisti, professor Azər Dadaşovun Ulu öndər Heydər Əliyevə həsr olunmuş əsərlərindən ibarət konsert və yeni not nəşrlərinin təqdimatı (19 iyun) da bu qəbildən növbəti tədbir idi. Bəstəkarın bu yaxınlarda çapdan çıxmış üç musiqi toplusunda dahi şəxsiyyətə həsr olunmuş əsərləri də var.

İttifaqın sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə giriş sözündə Azər Dadaşovun yaradıcılığından söz açdı. Qeyd etdi ki, əksər musiqi janrlarında səmərəli fəaliyyət göstərən bəstəkarın əsərləri canlı obrazlılığı və musiqi dilinin ifadəliliyi ilə diqqəti cəlb edir. Bildirdi ki, bəstəkarın simfonik janrda məhsuldar yaradıcılığı var, o, 16 simfoniyanın müəllifidir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı "Azər Dadaşovun yaradıcılığında Heydər Əliyev obrazı" mövzusunda çıxış etdi. O, həmçinin bəstəkarın hər birində Ümummilli liderə ithaf kompozisiyasının yer aldığı üç yeni nəşr haqqında məlumat verdi. "Azər Dadaşovun violin və fortepiano üçün əsərlər", "Fortepiano üçün lirik pyeslər", "Xor və fortepiano üçün mahnılar" musiqi topluları həm peşəkar musiqiçilər, həm də tələbələr üçün nəzərdə tutulub.



Tədbirdə bəstəkarın xor və fortepiano üçün yazılmış "Heydər atamız", "Qarabağ bayatıları", "Bir millət, iki dövlət", "Vətənim var", violin və fortepiano üçün "Poema-ithaf", "Ariya" pyesləri, digər əsərləri, eləcə də ilk dəfə müəllifin ifasında "Serenada" lirik pyesi səsləndi.

Konsertdə Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət gimnaziyasının "Harmoniya" və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xəzər" birləşmiş tələbə xoru (xormeyster Əməkdar müəllim Təranə Yusifova), Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) I kurs tələbəsi Ozcan Cabbari (violin), Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin IX sinif şagirdi Fidan Musayeva (violin), BMA-nın II kurs tələbəsi Emil Hüseynov (violin), İncəsənət gimnaziyasının VIII sinif şagirdi Sura Həsənli (violin, müəllim professor Fatima İdiatulina), beynəlxalq müsabiqə laureatı Ülviyyə Kazımova çıxış etdilər.

Tədbir Azər Dadaşovun Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 16 saylı "Vətən oğlu" simfoniyasının finalının video variantda nümayişi və yeni not əsərlərinin təqdimatı ilə başa çatdı.

**Fidan Nəsirova**
**BMA-nın elmi tədqiqat laboratoriyasının əməkdaşı**

# Azərbaycanlı veteran haqqında film Rusiya telekanalında



Ötən il Sankt-Peterburqda MDB ölkələrinin kinematoqrafçılarının pitçinqi keçirilmişdi. Tanınmış kinorejissor Ali Xamrayevin "Sonuncu şahid" film layihəsi pitçinqin qaliblərindən biri olub. "Sonuncu şahid" layihəsi İkinci Dünya müharibəsinin sağ qalmış qəhrəmanlarının həyatından bəhs edir.

Azərbaycan kinematoqrafçıları da bu layihəyə qoşulub. "Azərbaycanfilm" kinostudiyasından verilən məlumata görə, "Sonuncu şahid" layihəsi çərçivəsində Astaranın Pensər kəndində yaşayan 97 yaşlı müharibə veteran İzzət Nemətov haqqında film çəkilib.

Filmin prodüseri Nazim Hüseynov, ssenari müəllifi Tahir Tahiroviç, rejissoru Aydan Əhmədova, operatoru Rafiq Əliyevdir. Filmin montaj prosesi Sankt-Peterburqda gerçəkləşib.

Ümumilikdə 10-a yaxın qəhrəmanın həyatından bəhs edən "Sonuncu şahid" film-balladası 22-23 iyun tarixlərində Rusiyanın "Kultura TV" kanalının proqramında yer alıb.

# Tarzən Zərif Qayıbova həsr olunan gecə

Gənc yaşında vəfat edən gəncəli tarzən Zərif Qayıbov. Onu digər tarzənlərdən qeyri-adi və təkrarolunmaz çalğısı, sarı simlərdə özünəməxsus zərif gezişməsi fərqləndirirdi.

Bu fikirlər Zərif Qayıbovun (1920-1943) adını daşıyan Gəncə şəhər 5 nömrəli Uşaq musiqi məktəbində tarzənə həsr olunan tədbirdə səslənib.

Qeyd olunub ki, tarzən hələ 14 yaşında bütün Cənubi Qafqazda şöhrət qazanıb. İfa etdiyi "Şur" muğamı dinləyicilərin xüsusilə diqqətini çəkib.



Məktəbin müəllimi Asudə Mustafayeva deyib ki, kollektiv həmişə çalışır ki, Z.Qayıbovun adını həmişə uca tutsun, onun şöhrətinə, xidmətlərinə layiq şagirdlər yetişdirsinlər.

Xatirə tədbirində Z.Qayıbovun vaxtilə sevə-sevə ifa etdiyi muğamlar səsləndirilib. Həmçinin Türkiyə-Azərbaycan qardaşlığının rəmzinə çevrilən musiqili kompozisiya – "Mehtər marşı" tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Məktəbin Xalq çalğı alətləri şöbəsi yetirmələrinin ifasında "Şur" muğamı, "Dağ kralının rəqsi" kimi nümunələr təqdim olunub.

Sonda məktəbin beynəlxalq müsabiqələrdə fərqlənən şagirdlərinə fəxri fərmanlar təqdim edilib.

Qeyd edək ki, Zərif Qayıbov müstəqil Azərbaycanın ilk baş prokuroru olmuş İsmət Qayıbovun (1942-1991) qardaşıdır.

**Lalə**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi




Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (43)

### 1993-cü il 1 oktyabr

Ali Sovetin sədri, Prezident səlahiyyətlərini icra edən Heydər Əliyev Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələri ilə görüş keçirib. Görüşdə vurğulanıb ki, ölkəmizdə müxtəlif milli icmaların, azsaylı xalqların mehribanlıq şəraitində yaşaması Azərbaycanın milli-mədəni zənginliyinin göstəricisidir.

### 1993-cü il 3 oktyabr

Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. Səsvermənin nəticələrinə əsasən, Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

### 1993-cü il 6 oktyabr

Heydər Əliyev Xalq şairi Məmməd Arazı anadan olmasının 60 illiyi münasibətilə təbrik edib. *"Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkkürünün məhsulu olan yüzlərlə şeiriniz milyonların qəlbinə yol taparaq özünə və Sizə əbədi yaşamaq hüququ qazandırıb. Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda bundan belə də yorulmadan çalışacaq, qədim və zəngin ənənələri olan milli poeziyamıza yeni töhfələr bəxş edəcəksiniz"*, – deyə təbrik məktubunda vurğulanırdı.

### 1993-cü il 10 oktyabr

Heydər Əliyevin Azərbaycan Respublikası Prezidenti kimi andiçmə mərasimi keçirilib.

### 1993-cü il 26 oktyabr

Prezident Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaranmasının 70 illiyi münasibətilə Bakıda keçirilən elmi-praktik konfransın iştirakçılarına məktub göndərib.

*"Soykökümüzün, adət və ənənələrimizin, bir çox müqəddəs mənəvi sərvətlərimizin ayrılmaz tellərlə bir-birinə bağlı olduğu türk xalqının bu böyük bayramı eyni zamanda Azərbaycan üçün də əziz gündür... Atatürkün məşhur "Yurdda sülh, cahanda sülh" ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir"*, – deyə məktubda bildirilirdi.

### 1993-cü il 2 noyabr

Prezident Heydər Əliyev cəbhə bölgəsində yaranmış ağır vəziyyət, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə yeni hücumları ilə əlaqədar televiziya və radio vasitəsilə xalqa müraciət edib. İyul ayından başlayaraq Ağdam rayonunun böyük hissəsi, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonları işğal olunmuşdu. Heydər Əliyev Azərbaycan cəmiyyətini, bütün xalqı təcavüzkarla mübarizədə səfərbər olmağa çağırıb.

*"Mən bəzi acı həqiqətləri sizə çatdıraraq, eyni zamanda bildirmək istəyirəm ki, doğrudan da, Azərbaycan xalqının potensialı – həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Bu sahədə ziyalılarımız daha fəal çalışmalıdırlar. Onlar sərhəd bölgələrində, qaçqınların arasında, ordu hissələrində olmalıdırlar...*

*...Əlli il bundan əvvəlki müharibə (1941-1945-ci illər müharibəsi – red.) zamanı bizim ziyalılarımız – yazıçılar, mədəniyyət xadimləri, alimlər bu məsələlərdə çox fəal iştirak edirdilər. İndi də ziyalılarımızı dəvət edirəm, çox xahiş edirəm ki, bu işə qoşulsunlar. Azərbaycan xalqının zəngin milli ənənələri var. Torpaqlarımızın etibarlı müdafiəsi üçün bu ənənələrdən istifadə olunmalıdır...*

*Bir sözlə, vəziyyət ağırdır, gərgindir. Ancaq bu o demək deyil ki, biz vəziyyəti çıxılmaz hesab edirik. Xeyr. Yenə də deyirəm, bu gün Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri – bunların hamısı birləşdirilməlidir...".*

Qeyd edək ki, Heydər Əliyevin bu müraciətindən sonra minlərlə gənc könüllü cəbhəyə yola düşdü.

### 1993-cü il 15 dekabr

Prezident Heydər Əliyev Xalq rəssamı Tahir Salahovu anadan olmasının 65 illiyi münasibətilə təbrik edib. *"Əmin olduğumu bildirmək istəyirəm ki, Siz bundan sonra da xalqımızın mədəniyyətinin dünya miqyasında təbliğ edilməsi, onun mənəviyyatının, bədii-estetik zövqünün zənginləşdirilməsi, gənc rəssamlarımızın böyük sənətə cəlb olunması naminə səylərinizi əsirgəməyərək, ənənələrlə zəngin olan Azərbaycan təsviri sənətinə yeni töhfələr verəcəksiniz"*, – deyə təbrik məktubunda vurğulanırdı.

### 1993-cü il 17 dekabr

Prezident Heydər Əliyevin imzaladığı fərmanla Xalq şairi Nəbi Xəzri Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunub.

### 1993-cü il 18 dekabr

Heydər Əliyev Xalq yazıçısı Mirzə İbrahimovun dəfn mərasimində iştirak edib.

### 1993-cü il 20 dekabr

Prezident Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Ziya Bünyadovu 70 illik yubileyi münasibətilə təbrik edib.

*"Siz uzun illər boyu tarix elmimizin inkişafı yolunda gərgin axtarışlar aparmağı ömrünüzün mənasına çevirmisiniz. Orta əsrlər Azərbaycanının açılmamış səhifələrinin araşdırılmasına, öyrənilməsinə həsr edilən onlarca kitabınızla, yüzlərcə məqalənizlə şərqşünaslıq və tarix elmimizə beynəlxalq nüfuz qazandırmağa çalışmısınız... İndi də elmi fəaliyyətinizi davam etdirərək xalqımızın tarixi sınağa çəkildiyi bir zamanda əlinizdən gələni əsirgəmirsiniz. Ümidvaram ki, müstəqil Azərbaycanımız naminə bundan sonra da yorulmadan çalışacaqsınız"*, – deyə təbrik məktubunda qeyd olunurdu.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№47-48 (2017)
23 iyun 2023
www.medeniyyet.az



# 26 İyun – 105 il sonra...

## Cümhuriyyət tariximizin şanlı səhifəsi Zəfər ruhu ilə daha da dəyər qazanıb...

əvvəli səh. 1-də

Milli Ordu yeni qurulan milli dövlətin özünütəsdiq üçün ən başlıca şərt idi. Məhz güclü, nizami ordu 1918-ci ilin 28 mayında bəyan edilən istiqlalın bütün ölkə ərazisində qələbəsini təmin edə bilərdi. Bu yolda Azərbaycana ən böyük dəstəyi isə qardaş Türkiyə (o vaxt Osmanlı dövləti) verdi.

1918-ci il iyunun əvvəlində S.Şaumyanın başçılıq etdiyi "Bakı Komissarları Soveti" əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə Cümhuriyyətə qarşı savaşa başlamışdı. Birinci məqsəd Milli Hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin buna nail olmadılar. Osmanlının beşinci diviziyası (Qafqaz diviziyası) Mürsəl paşanın rəhbərliyi ilə Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçərək Gəncəyə gəlib çıxdı və şəhərdə əmin-arxayınlığı təmin etdi.

İyunun 16-da Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət kabineti Tiflisdən Gəncəyə köçdü. İyunun 26-da Nazirlər Şurası ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul etdi. Keçmiş çar ordusunda general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman korpusu əsasında Milli Ordunun təməli qoyuldu.

***

Azərbaycan milli korpusunun və Osmanlının beşinci diviziyasının birləşmiş qüvvələri (Qafqaz İslam Ordusu) Nuru paşanın komandanlığı altında Gəncədən Bakıya zəfər yürüşünə başladı. Orduya türklərdən və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi. İki həftə davam edən döyüşlərdə Göyçay və Şamaxı ətrafında "Bakı Soveti" qoşunlarına ağır zərbə vuruldu. İyulun sonunda Şaumyanın rəhbərlik etdiyi "Bakı Soveti" istefa verməyə məcbur oldu, avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət "Sentrokaspi diktaturası" adlanan yeni mürtəce bir qurum yaradıldı.

Avqustun 11-də Gəncədəki Milli Hökumət ümumi hərbi səfərbərlik elan etdi və 1894-1899-cu il təvəllüdlü bütün vətəndaşlar hərbi xidmətə çağırıldı.

Sentyabrın 15-də Bakıya həlledici hücum başlandı, şəhər azad edildi. Bu döyüşlərdə Azərbaycan və Osmanlı qoşunları ümumilikdə 4 mindən çox şəhid (o cümlədən türk hərbçilər 1130 nəfər) vermişdi.

Lakin türk əsgəri tezliklə Azərbaycanı tərk etməyə məcbur oldu. 1918-ci il oktyabrın 30-da imzalanan Mudros müqaviləsinin tələbinə görə, I Dünya müharibəsində məğlub sayılan Osmanlının qoşun qüvvələri Bakıdan çıxmalı, şəhərə qalib Antantanı təmsil edən ingilis qoşunları daxil olmalı idi. Milli Hökumətin bu qərarı qəbul etməkdən başqa çarəsi yox idi. Noyabrın 17-də general Tomsonun hərbi dəstələri Bakıya girdi. Bu arada Cümhuriyyətin Hərbi Nazirliyi fəaliyyətə başladı. Keçmiş çar Rusiyası ordusunun generallarından Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sülkeviç Baş Qərargah rəisi təyin edildilər.

***

1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ oldu. Ordunun yaradılması prosesi 1920-ci ilin yanvarında əsasən başa çatdırıldı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi. 1919-cu ilin yayında isə, yenə I Dünya müharibəsinin nəticələrinə əsasən, ingilislər Bakını tərk etməli oldular. Şəhərin idarəçiliyi Azərbaycan hökumətinə təhvil verildi. Cümhuriyyət ordu quruculuğunda təcrübəli general və zabitlər – İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov və digərlərinin də böyük əməyi olmuşdu.

Lakin 1919-cu ilin sonundan Azərbaycana şimaldan hərbi təhdidlər artmağa başlamışdı. "Vahid Rusiya"nı bərpa etmək iddiasında olan general Denikinin qoşunları Cənubi Qafqaza yaxınlaşırdı. Denikinlə müharibə aparan rus bolşeviklərinin də gözü Azərbaycanda idi. Bu arada Ermənistanın daşnak hökuməti Moskvada gizli danışıqlar apararaq Azərbaycandan qoparılacaq ərazi güzəştləri müqabilində Cümhuriyyət hökumətini devirməyə yardımçı olacağını bolşeviklərə vəd edirdi.

1920-ci ilin əvvəlindən Azərbaycan Ordusunun, demək olar ki, bütün qüvvələri Qarabağ, Zəngəzur və Gəncə istiqamətində ermənilərlə savaşda idi, ölkənin şimal sərhədləri isə müdafiəsiz qalmışdı. Bakıda isə hökumət daxilində və parlamentdə böhran dərinləşirdi. 1920-ci ilin aprelində bolşevik Rusiyasının XI ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı və A.Mikoyan başda olmaqla Bakı bolşevikləri "Azərbaycan xalqı adından" bu ordunu Bakıya çağırdılar. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamışdı, Bakıda Milli Hökumət süqut etdi.

Gəncəbasarda və Qarabağda Cümhuriyyətin ordu hissələri ilə rus qoşunları arasında toqquşmalar iyunun ortasınadək sürdü. Amma qüvvələr bərabər deyildi. Bolşevik hökuməti 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret verdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i bolşeviklər tərəfindən güllələndi, komandirlərin böyük hissəsi repressiyaya məruz qaldı...

***

Sovet dövlətinin, bütün sahələrində olduğu kimi, ordu quruculuğu da məlum siyasi-ideoloji prinsiplərə köklənmişdi. Moskva milli respublikalarda, əlalxüsus müsəlman respublikalarında milli hərbi kadrların hazırlanması yönündə cəhdləri qısqanclıqla qarşılayır və dəf edirdi. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri əsasən Rusiya, Ukrayna və Belarusda fəaliyyət göstərirdi.

"Bunları görəndə, düşünürdüm ki, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq?" – Ulu öndər Heydər Əliyev bu sözləri 2003-cü il aprelin 21-də, Cəmşid Naxçıvanski adına hərbi məktəbin 30 illik yubiley təntənəsində çıxış edərkən demişdi. O hərbi məktəb ki, sovet dövründə Azərbaycan milli hərbi kadrların hazırlanması istiqamətində mühüm rol oynayıb.

Heydər Əliyev 1973-cü ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail olmuşdu. Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların tam əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri, necə deyərlər, barmaqla saymaq olardı. Əlbəttə, indi bəziləri 1973-cü ildə Bakıda belə bir hərbi məktəbin yaradılmasını bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma buna nail olmaq üçün, həqiqətən, böyük siyasət və uzaqgörənlik lazım idi.

***

Üstündən 20 il ötdü və Heydər Əliyevin yaratdığı hərbi məktəb müstəqil Azərbaycanda ordu quruculuğu üçün əsas peşəkar kadr bazasına çevrildi. 70-ci illərdə həmin məktəbin müdavimləri olanlar artıq müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin zabitləri, generalları idi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələr kimi, ordu quruculuğu böhran və çətinliklərdən keçdi. Təkcə bir faktı deyək ki, 1991-1993-cü illərdə Azərbaycanda Müdafiə Nazirliyinin rəhbərliyi 6 dəfə dəyişdirilmişdi. Dövrün məlum siyasi prosesləri, hakimiyyət böhranı, Qarabağda yaşanan ağır itkilər Silahlı Qüvvələri də iflas həddinə gətirmişdi. Dövlətin və onun ordusunun güclü liderə, komandana ehtiyacı vardı.

Məhz Heydər Əliyev 1993-cü ilin iyununda Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğu başlandı. Lakin bu prosesə fundamental şəkildə başlamaq üçün ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, ordu quruculuğunun şah damarı olan iqtisadiyyatın bərpası zəruri idi.

Bütün bunları nəzərə alaraq Heydər Əliyev 1994-cü ilin mayında Qarabağ müharibəsində atəşkəsə nail oldu. Çünki o, Azərbaycan əsgərinin gerçək durumundan xəbərdar olduğu kimi, müzəffər ordu quruculuğu üçün nə vaxt lazım olduğunu gözəl bilirdi. Sonrakı illərdə Azərbaycanda Silahlı Qüvvələrin ən müasir səviyyədə, o cümlədən qardaş Türkiyənin hərbi təlim və kadr hazırlığında köməyi sayəsində yenidən qurulması, ordu hissələrinin maddi-texniki təchizatının təkmilləşdirilməsi, hərbçilərin həyat şəraitinin yaxşılaşdırılması üçün atılan ardıcıl addımlar bunu bir daha təsdiqlədi.

***

"Əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları arxa plana keçib. İndi güc amili əsas rol oynayır. Kim güclüdür, o da haqlıdır. Biz ölkəmizi gücləndiririk. Hərbi potensialın möhkəmləndirilməsi ilə məşğuluq. Biz daha da güclü olmalıyıq. Həm siyasi, həm iqtisadi, həm hərbi gücümüz daha da artmalıdır" – Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir neçə il əvvəl söylədiyi bu sözlər dövlətin ordu quruculuğuna nə dərəcədə müstəsna önəm verdiyini göstərirdi.

Çünki müharibə hələ bitməmişdi, sadəcə, atəşi kəsilmişdi...

2008-ci ilin 26 iyununda, Azərbaycan Silahlı Qüvvələrinin Birinci Qarabağ müharibəsindən sonra, atəşkəs dövründə keçirilən ilk paradında Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Ordunun güclənməsi üçün nə lazımdırsa, biz bundan sonra da edəcəyik. Çünki Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Biz hər an öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq və məhz bu məqsədlə biz güclü ordu yaradırıq. Əlbəttə, biz sülh danışıqlarını davam etdirəcəyik. Ancaq, eyni zamanda, güclü ordunun yaranması həm də bizə imkan verir ki, biz istənilən yolla ədaləti bərpa edək və öz doğma torpaqlarımızı işğalçılardan azad edək...".

O vaxt Qarabağ müharibəsində atəşkəsin 14 il arxada qalmış, amma sülh danışıqları heç bir nəticəyə gətirməmişdi. İrəlidə hələ neçə belə illər vardı. Eyni zamanda, bir gerçək o vaxt da bəlli idi: savaş diplomatiyası o vaxt təsirli olur ki, onun arxasında düşmənin hesablaşdığı güc dayanmış olsun.

Sonra 2016-cı ilin apreli gəldi. Dördgünlük döyüşlərdə düşmən bu gücü ilk dəfə gördü.

***

"Bu gün Azərbaycan Ordusunun istər texnika və bacarıqlı hərbi kadrlar baxımından təchizatı ilə, istərsə də ölkəmizin iqtisadi potensialının bu istiqamətdə açdığı imkanlarla, həqiqətən, öyünməyə dəyər. Bu reallığa işğalçı dövlət də əvvəl-axır hesablaşmağa məcbur olacaq. Necə ki, 2016-cı ilin aprelində bu gücün qarşısında geri durmağa məcbur oldu. Təkrarı da olacaq. Babaların yüz il öncə Gəncədən Bakıya istiqlalı gətirən zəfər yolu nəvələrin sayəsində bir gün Qarabağdan da keçməlidir..." – bunu da beş il əvvəl, 2018-ci ilin iyununda yazmışdıq.

2020-ci ilin 27 sentyabrında o gün gəldi. Artıq təqvimimizə əbədi və dərin anlamı ilə – Azərbaycan Respublikasının işğal altında olan torpaqlarının azad edilməsi uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü – Anım Günü kimi yazılan bu tarix milli yaddaşda bir həqiqət anı, qırılma nöqtəsi idi. Bundan sonra geri dönüş olmazdı.

Ali Baş Komandan İlham Əliyev: "Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli".

27 sentyabrda Vətən müharibəsinin başladığını xalqa çatdıran Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağ məsələsi milli məsələ, bu məsələnin həllinin bizim tarixi vəzifəmiz olduğunu bəyan etdi: "Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun... Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir...".

44 gün sonra tarixi Zəfər günü də yetişdi...

"Bu Zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi. 30 ilə yaxın müddət ərzində əmri gözləyirdi, Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Və həyat bunu göstərdi ki, vaxtlı-vaxtında atılmış addımlar, bütün gücümüzü səfərbər edib bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi..." – Ali Baş Komandan 10 dekabr 2020-ci ildə Zəfər paradında bu sözlərlə xalqa xitab etdi.

Yuxarıda haqqında bəhs etdiyimiz 2008-ci ilin paradından sonra Azadlıq meydanında bir neçə dəfə parad olmuşdu... Amma bu, bir başqa parad idi – Zəfər paradı...

Ali Baş Komandan İlham Əliyev: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyinə qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır...".

Ordum varsa – yurdum var. Bir az patetik, şairanə səslənən bu məlum ifadə, əslində, böyük bir gerçəyin təsdiqidir. Xalqımız Ordusu ilə hər zaman qürur duysun...

**Vüqar Orxan**

---

**Nigar Rəfibəyli – 110**

# Solmayan poeziya gülüstanı...

İyunun 23-ü XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Nigar Rəfibəylinin (1913-1981) anadan olmasının 110-cu ildönümüdür. Bu münasibətlə şairin həyat və yaradıcılığı haqqında bir sıra faktları oxucularımıza təqdim edirik.

Gəncə şəhərində anadan olan Nigar xanım ibtidai təhsilini burada alıb, 1930-cu ildə Bakı Pedaqoji Texnikumunu bitirib. 1932-1936-cı illərdə Moskvada Pedaqoji İnstitutda təhsilini davam etdirib. 1930-1932-ci illərdə Bakı kinostudiyasında, "Azərnəşr"də tərcüməçi və redaktor, 1937-1939-cu illərdə "Uşaqgəncnəşr"də redaktor işləyib. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü olub.

Nigar Rəfibəyli milli ədəbiyyatı lirikanın dəyərli nümunələri ilə zənginləşdirən sənətkardır. Vətənə bağlılıq, insanın mənəvi ucalığı və yurdun əsrarəngiz təbiət gözəllikləri onun özünəməxsus tərzdə tərənnümü onun yaradıcılığının ideya-bədii leytmotivini təşkil edib.

Şairliklə yanaşı, tərcümə fəaliyyəti ilə də məşğul olub. Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", F.Şillerin "Məkr və məhəbbət", A.P.Çexovun "Vanya dayı", "Albalı bağı" dramlarını, E.L.Voyniçin "Ovod", O.Qonçarın "Bayraqdarlar" romanlarını, Ə.Nəvai, A.Puşkin, M.Lermontov, T.Şevçenko, A.Mitskeviç, A.Sereteli və başqalarının əsərlərini tərcümə edib.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərinə görə 1967-ci ildə Azərbaycanın "Əməkdar mədəniyyət işçisi", 1981-ci ildə "Xalq şairi" fəxri adlarına layiq görülüb, "Şərəf Nişanı" ordeni və medallarla təltif olunub.

Prezident İlham Əliyevin sərəncamı ilə 2013-cü ildə Nigar Rəfibəylinin 100 illik yubileyi qeyd olunub. Paytaxtın küçələrindən biri onun adını daşıyır.



### Atasını bolşeviklər güllələyib

Şairin atası Xudadat bəy Rəfibəyli xalqının azadlığı yolunda mübarizə aparan ictimai-siyasi xadim idi. Azərbaycan Xalq Cümhuriyyətinin ilk səhiyyə naziri, daha sonra Gəncə şəhərinin general-qubernatoru olmuşdu. 1920-ci il aprelin 28-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra may ayında həbs olunur və məhkəməsiz hökmü ilə Bakıya gətirilərək Nargin adasında güllələnir.



### İlk şeiri və ilk kitabı

Nigar Rəfibəylinin "Çadra" adlı ilk şeiri 15 yaşında, 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilib. İlk şeirindən ədəbi mühitdə rəğbətlə qarşılanan şairin birinci kitabı 1934-cü ildə nəşr olunub.

Nigar Rəfibəyli yaradıcılığında uşaqları da unutmayıb, onlar üçün bir-birindən maraqlı şeirlər qələmə alıb. Şairin "Balaca qəhrəman" (1942), "Günəşin cavabı" (1966), "Məstanın balaları" (1968), "Bizə bahar yaraşır" (1978) kitabları balaca oxucularının sevdiyi kitablardan olub.

Şair bundan başqa, "Zəfər nəğməsi" (1943), "Şeirlər" (1949), "Anaların səsi" (1951), "Yol xatirələri" (1957), "Dənizin səsi gəlir" (1964) və s. kitabların müəllifidir.

### Toylarında Cavidlə Müşfiq də iştirak edib...

Nigar xanım 1937-ci ildə şair Rəsul Rza ilə ailə həyatı qurur. Qızları Fidan Rzayeva müsahibələrinin birində bu haqda deyir: "Onların toyu elə yaşadıqları balaca daxma kimi evdə keçirilib. Sonradan repressiya olunan adamların bir çoxu, eləcə də Hüseyn Cavid, Mikayıl Müşfiq də onların toyunda iştirak ediblər. Atamgilin toyu ədəbiyyat adamlarının axırıncı məclisi olub. Bu məclisdən sonra onların hamısını bir-bir aradan götürüblər".

### İldən uzun gecələr...

1981-ci ildə Nigar xanımda ağır xəstəlik aşkar olunur. Xəstəlik artıq irəliləmişdi. Həkimlər onu müalicə üçün Moskvaya aparmağı məsləhət görürlər. Bir müddət idi Rəsul Rza da xəstəxanada müalicə olunurdu. Aprelin 1-də oğulları Anar anasının səhhəti ilə bağlı xəbəri Rəsul Rzaya demək üçün xəstəxanaya gedir. Xəbəri eşidən Rəsul Rzanın həyəcandan təzyiqi yüksəlir və dünyasını dəyişir. Həyat yoldaşının vəfat xəbərini Nigar xanıma söyləmirlər...

Həmin ərəfələrdə Emin Sabitoğlu Nigar Rəfibəylinin 40-cı illərdə yazdığı "Neyləyim" şeirinə sonradan böyük populyarlıq qazanan mahnı ("Alagözlüm") bəstələmişdi.

Mahnının tarixi barədə Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar müsahibələrinin birində deyib: "Atamın vəfatından sonra bir gün Emin mənə dedi ki, Nigar xalanın sözlərinə təzə bir mahnı bəstələmişəm. Amma sən verən mətnlərdən deyil, köhnə bir şeiridir. Həmin mahnını Akif İslamzadənin ifasında lentə yazdırmışdı. Bir gün lenti də, maqnitofonu da xəstəxanaya gətirdik. "Qoy Nigar xala özü də eşitsin" dedi. Mən mahnının hansı şeirə bəstələndiyini bilmirdim və təəccüblənirdim ki, görən niyə Emin əlində təzə mətnlər ola-ola köhnə şeirə müraciət edib. Mahnının ilk sözlərini eşidən kimi hər şeyi başa düşdüm:

*Alagözlüm, səndən ayrı gecələr*
*Bir il kimi uzun olur, neyləyim!*
*Bağçamızda qızılgüllər hər səhər*
*Tezdən açır, vaxtsız solur, neyləyim!*

Məhz bu sözlər – artıq dünyadan köçmüş insanı haraylaması – bəstəkarın qəlbini tərpətmişdi; çağırdığı adamın yoxluğunu Emin bilirdi, Akif bilirdi, hamı bilirdi, anam bilmirdi tək".

### Və aradan keçən üç ay...

Bir müddət sonra həkimlər Nigar xanımın xəstəliyinin əlacsız olduğunu etiraf edirlər. Onu evlərinə gətirirlər. Nigar Rəfibəyli 1981-ci il iyulun 9-da – ömürgün yoldaşının vəfatından üç ay sonra – dünyasını dəyişir.

Xalq şairinin tək "Neyləyim" şeiri deyil, bir çox poeziya nümunələri nəğməyə dönüb tanınmış müğənnilərin ifasında qəlblərə həzinlik gətirib. Şeirləri ilə bərabər, sözlərinə yazılan mahnılar da bu gün də oxunur, gələcəkdə də oxunacaq...

**Hazırladı: N.Məmmədli**

# Bakıda başlanan tarix Krakovda davam edir...

## Ölkəmiz III Avropa Oyunlarında təmsil olunur

İyunun 21-də Polşanın Krakov şəhərində III Avropa Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Avropa Oyunlarında Azərbaycan da iştirak edir.

"Henik Reyman" stadionunda təşkil olunan mərasimin bədii hissəsi xoreoqrafiyası ilə göz oxşayıb. Musiqi və rəqslərin sintezindən qurulmuş proqramda polşalı müğənnilər Trbos və Roksi Vengel, Ukraynanın "Kaluş" hip-hop qrupu (Avroviziya – 2022-nin qalibi) da iştirak edib. Həmçinin Kşiştof Çuqovski, Qoleç və Orkestr, Zakopover, Darya je Şląsk, Kamil Bednarek, Munyek və Prjyaasiele də açılış mərasiminin ulduz qonaqları sırasında yer alıblar.



Açılış mərasimində iştirakçı ölkələrin idmançılarının paradı da olub. Azərbaycan bayrağını qılıncoynadan Barat Quliyev və oxatan Yaylagül Ramazanova daşıyıblar. Qeyd edək ki, Azərbaycan idmançıları üçüncü Avropa Oyunları zamanı Polşanın 5 müxtəlif şəhərində mübarizə aparacaqlar. Parada yalnız Krakovdakı yarışlarda iştirak edəcək idmançılar qatılıblar.

İyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı iştirak edir. Onlar 29 növ üzrə 253 dəst medal uğrunda yarışacaqlar. Azərbaycan Krakov-2023-də 14 növ üzrə 101 idmançı ilə təmsil olunur.

Qeyd edək ki, tarixdə ilk Avropa Oyunlarına 2015-ci ildə Bakı ev sahibliyi edib. İkinci Avropa Oyunları 2019-cu ildə Minskdə (Belarus) keçirilib. Azərbaycan millisi bu yarışlarda ümumilikdə 84 medal (26 qızıl, 25 gümüş, 33 bürünc) qazanıb. Komandamız medal sıralamasında Bakı-2015-də 2-ci, Minsk-2019-da 10-cu olub.

# "Vahid Qafqaz" festivalı gəncləri yenidən bir araya gətirəcək

Avqustun 24-dən 27-dək Gürcüstanın Kvemo Kartli bölgəsi Marneuli bələdiyyəsinin Tserakvi kəndində "One Caucasus" ("Vahid Qafqaz") beynəlxalq musiqi festivalı keçiriləcək. Festivala Azərbaycan musiqiçiləri də dəvət olunublar.

2014-cü ildən keçirilən festivalın əsas məqsədi Cənubi Qafqazda yaşayan gənclərə ruhlandırıcı məkan yaratmaqdır.

"One Caucasus"un saytında yer alan məlumatda bildirilir: "Cənubi Qafqaz regionu illərdən bəri bir çox münaqişələrdən əziyyət çəkir. Kvemo Kartli bölgəsi Gürcüstan, Ermənistan və Azərbaycanın sərhəd bölgəsidir və uzun illərdir ki, bir çox etnik və dini qrupların sülh şəraitində yaşadığı bir yer olaraq tanınır. Bu, bir sıra gərginlik və münaqişələrdən əziyyət çəkən Qafqaz üçün olduqca unikaldır. Məqsədimiz yerli bələdiyyənin dəstəyi ilə bütün Qafqaz bölgəsindən olan gənclərin görüşlərini və əməkdaşlığını təşviq etmək üçün ruhlandırıcı və təhlükəsiz bir məkan yaratmaqdır".

"One Caucasus" festivalı dünyanın müxtəlif yerlərindən musiqiçiləri, rəssamları, könüllüləri bir araya gətirir. Festivala Kvemo Kartli bölgəsi gənclərinin "One Caucasus" təhsil proqramı çərçivəsində yaratdığı incəsənət layihələri (filmlər, instalyasiyalar və s.) də daxildir.




Məlumatda qeyd olunur ki, festivala qatılanların nəqliyyat və yerləşdirmə xərcləri təşkilatçılar qarşılayır.

# "Titanik"i görmək üçün gedən "Titan"...

## Macəra uğuruna ölməyə dəyərmi?

İyunun 18-də Atlantik okeanında itmiş "Titan" batiskafının axtarışları dörd gün ərzində nəticə verməyib. İçərisində beş nəfər olan sualtı aparat okeanın dibinə, təxminən 3,8 min metr dərinlikdə "Titanik" gəmisinin qalıqlarının olduğu yerə enməli idi. Lakin batiskaf suya enəndən 1 saat 45 dəqiqə sonra radarlardan itib.

"Titanik"i görməyə gedənlərin britaniyalı milyarder, dünyanın ən varlı macəra turisti kimi ad çıxarmış Hemiş Hardinq, dənizaltı tədqiqatlar üzrə fransalı mütəxəssis Pol-Anri Narjole, "Titanik"in qalıqlarına ekstremal ekskursiyalar təşkil edən "OceanGate Expeditions" (ABŞ) şirkətinin qurucusu Stokton Raş və Pakistanın ən zəngin adamlarından sayılan Şəhzad Davud ilə oğlu Süleymanın olduğu bildirilir. Məlumatlara görə, pakistanlı ata-oğulu bu "cəhənnəm səfəri"nə dostları Hemiş Hardinq sövq edib.

Batiskafla radar əlaqəsi kəsiləndən sonra ABŞ və Kanadanın hərbi və mülki vasitələri ilə yanaşı, sualtı robotu olan Fransa gəmisi də axtarış zonasına yollanıb. Əraziyə sualtını izləməyə bacaran xüsusi radarlı təyyarə də göndərilib. Hidrolokatorlar ilk gün sualtı səslər qeydə alsa da, batiskafla əlaqə yaratmaq mümkün olmayıb. Onun dəqiq yeri, ekspedisiyanın başına nə gəldiyi məlum deyil.

ABŞ Sahil Mühafizəsi Xidməti iyunun 22-də axtarışların hələlik nəticəsiz qaldığını bildirib.

Qeyd edilir ki, batiskafda 96 sutkaya yetəcək qədər oksigen ehtiyatı olub. Mütəxəssislər ehtimal edirlər ki, əgər batiskaf fəaliyyət göstərirsə, beş nəfər üçün oksigen 22 iyun saat 14 üçün (yerli vaxtla) tükənməli idi.

Əslində, belə fors-major hallar üçün batiskafların bir sıra təhlükəsizlik sistemləri var. O cümlədən batiskaf ballastı atıb suyun üzərinə çıxa bilər. Ehtimallara görə, sualtı aparat ya "Titanik"in metal konstruksiyalarına ilişib qalıb, ya da – ən pis ehtimal – heç ora gedib çatmadan batiskafda partlayış baş verib.

Qeyd edək ki, "Titanik" gəmisinin Atlantik okeanı dibində yeri uzun axtarışlardan sonra 1985-ci ildə (Robert Ballardın ekspedisiyası) müəyyən olunub və o vaxtdan bəri bir neçə tədqiqat xarakterli ekspedisiya həyata keçirilib. O cümlədən amerikalı rejissor Ceyms Kameron məşhur "Titanik" filmini (1997) çəkməzdən öncə mütəxəssislər qrupu ilə okeanın dibinə enərək sualtı çəkilişlər aparmışdı.

"Siz dünyada ən amansız bir yerə gedirsiniz. Oradan sizi qurtarmaq üçün heç bir xilasetmə xidmətinə zəng etmək imkanı yoxdur", – deyə rejissor bu ekspedisiyanın nə dərəcədə riskli olduğunu bildirmişdi. Bununla belə, bu riski gözə alanlar var, özü də böyük məbləğdə pul ödəməklə. "OceanGate" iki il öncə "Titanik"ə "turistik" ekspedisiyalara başlayanda adambaşına qiymət 125 min dollar idi, indi 250 min dollar təşkil edir.



Yeri gəlmişkən, "Titan" batiskafında olan 58 yaşlı Hemiş Hardinq bundan öncə Ceff Bezosun "Blue Origin" kompaniyası ilə kosmosa uçmuş və dünya okeanının ən dərin yeri olan Marian çökəkliyinə (Sakit okean, 11 min metr dərinlik) enmişdi. Atlantik okeanında 3,8 min metr dərinlikdə olan "Titanik"i görmək onun növbəti ekstremal macərası olmalı idi.

Xatırladaq ki, dövrünün ən böyük gəmisi olan "Titanik" ilk və son reysinə (Sautgempton (İngiltərə) – Nyu-York) 1912-ci il aprelin 10-da çıxmışdı. Mənzil başına 17 apreldə çatmalı idi. Aprelin 15-nə keçən gecə gəmi Atlantik okeanının şimalında nəhəng aysberqlə toqquşaraq batıb. Gəmidə (rəsmi qeydiyyata görə) 2200 nəfər vardı. Onlardan 1500 nəfəri xilas etmək mümkün olmadı.

**V.Kamal**

# Ərdoğan Türkiyə Konstitusiyasını yeniləmək istəyir

"Türkiyənin yüzilliyi" konsepsiyası vaxtilə hərbi çevrilişin nəticələrinə işlənib hazırlanmış və qəbul edilmiş Konstitusiya (Əsas Qanun) əsasında həyata keçirilə bilməz.



Prezident Rəcəb Tayyib Ərdoğan bu barədə iyunun 21-də Ankarada hakim Ədalət və İnkişaf Partiyasının 28-ci çağırış Türkiyə Böyük Millət Məclisindəki fraksiyasının ilk toplantısında çıxış edərkən bildirib.

Onun sözlərinə görə, Əsas Qanunun yeni redaksiyasının qəbul edilməsi Türkiyənin gələcək inkişafı üçün mühüm stimul olacaq. Yeni redaksiyada müsəlman qadınlarının baş örtüyünü taxmaq hüququnu təsbit etməyi təklif edən dövlət başçısı hakimiyyətin opponentlərini yeni Konstitusiya üzərində aparılan işi dəstəkləməyə çağırıb.

Ərdoğan həmçinin vurğulayıb ki, ölkə dünyanın 10 aparıcı iqtisadiyyatı siyahısına daxil olana qədər hökumət səylərini dayandırmayacaq. Bununla bağlı o deyib ki, Nazirlər Kabineti Türkiyənin 12-ci İnkişaf Planı və Ortamüddətli İnkişaf Proqramı üzərində aparılan işi davam etdirir. "Əminəm ki, ölkəmizin 85 milyonluq əhalisinin hamısı Türkiyənin iqtisadi rifahından bəhrələnəcək", - deyə o əlavə edib.

# Növbəti Beynəlxalq Mahmud Kaşğarlı hekayə müsabiqəsi elan olunub

## Sultan Raev: "Məqsədimiz türk xalqlarının gənc düşüncə adamlarını tanıtmaq, dostlaşdırmaqdır"

Türk dünyasının məşhur ədəbi yarışmalarından olan VII Beynəlxalq Mahmud Kaşğarlı hekayə müsabiqəsi elan edilib.




Builki müsabiqə Türkiyə Cümhuriyyətinin quruluşunun 100 və TÜRKSOY-un yaradılmasının 30 illiyinə həsr olunub.

Avrasiya Yazarlar Birliyi və TÜRKSOY-un nəzdindəki Yazarlar birliyinin keçirdiyi müsabiqəyə bu il UNESCO da dəstək verir.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un baş katibi Sultan Raev ənənəvi müsabiqə haqqında deyib: "Müsabiqənin mövzusu sərbəstdir. Hekayələr sentyabrın 15-dək qəbul olunacaq. Birinci yerin qalibi 35 min, ikinci yer 25, üçüncü yer 20, həvəsləndirici yer üçün isə 10 min türk lirəsi nəzərdə tutulub. Məqsədimiz türk xalqlarının gənc düşüncə adamlarını üzə çıxarmaq, onları tanıtmaq, dostlaşdırmaq, aralarında fikir mübadiləsinə zəmin yaratmaqdır".

Qaliblərin müəyyənləşdirilməsi oktyabrın 1-də, mükafatlandırma mərasimi isə dekabrın 4-də Ankarada keçiriləcək.

**Mehparə Sultanova**
**Ankara**




## Olaylar, faktlar (25–29 iyun)

**26 iyun** Azərbaycan Silahlı Qüvvələr Günüdür. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti ilk əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Silahlı Qüvvələr Günü elan edilib.

### 105 il əvvəl...

**27 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət dili haqqında" qərar qəbul edib. Azərbaycan (türk) dili ölkə ərazisində dövlət dili elan olunub.

### 104 il əvvəl...



**28 iyun 1919-cu ildə** I Dünya müharibəsinə (1914-1918) rəsmən son qoyan Versal (Fransa) sülhü imzalanıb. Bu, əslində, Almaniyanın kapitulyasiyasına dair saziş idi. Almaniya Elzas-Lotaringiyanı Fransaya (almanlar onu 1870-ci ildə ələ keçirmişdi), Eypen-Malmedi bölgəsini Belçikaya, Poznanı və Qərbi Prussiyanın bir hissəsini Polşaya qaytardı. Bundan əlavə, Dansiq (Qdansk) və Memel (Klaypeda) şəhərlərinə müstəqil idarəçilik verməli oldu (sonradan biri Polşaya, digəri Litvaya birləşdirildi). Şlezviq və Sileziyanın bir hissəsi Danimarka və Çexoslovakiyaya keçdi. Bütövlükdə Almaniya 1914-cü ilədək olan ərazisinin 13 faizini itirdi. Tarixçilərə görə, Versal sülhü Almaniyada revanşizm və faşizmi meydana gətirdi.

### 89 il əvvəl...

**29 iyun 1934-cü ildə** Azərbaycan Bəstəkarlar İttifaqı yaranıb. Asan Refatov ittifaqın idarə heyətinin sədri seçilib. Krım tatarı A.Refatov Azərbaycan Dövlət Konservatoriyasında təhsil almış, dərs demiş, 1931-ci ildə prorektor təyin edilmişdi. O, Bəstəkarlar İttifaqına bir il rəhbərlik etdi, 1937-ci ildə repressiya olundu.

### 73 il əvvəl...

**25 iyun 1950-ci ildə** Koreya müharibəsi başlayıb. Şimali Koreyanın (KXDR) qoşunları demarkasiya xəttini keçərək Cənubi Koreya (Koreya Respublikası) ərazisinə daxil olublar. 1948-1949-cu ildə Şimali və Cənubi Koreya ərazisindən SSRİ və ABŞ-ın qoşunları çıxandan sonra iki ölkə arasında 38-ci paralel üzrə demarkasiya xətti çəkilmiş, Pxenyan Moskvanın, Seul isə Vaşinqtonun təsiri altında qalmışdı. Üç il sürən müharibə sərhədin 38-ci paralel üzrə bərpası ilə yekunlaşdı.

### 48 il əvvəl...

**25 iyun 1975-ci ildə** Portuqaliyanın müstəmləkəsi olan Mozambik müstəqilliyini elan edib. Afrikanın cənub-şərqində ən böyük dövlət (ərazisi 802 min kv km) olan Mozambik "qara qitə"də müstəmləkəçiliyin son dayaqlarından idi.

### 31 il əvvəl...

**25 iyun 1992-ci ildə** İstanbulda Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə keçirilən konfransda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı təsis edilib. Yeni regional təşkilatın yaradılması barədə "İstanbul bəyannaməsi"ni 9 ölkə (Türkiyə, Rusiya, Ukrayna, Moldova, Rumıniya, Albaniya, Gürcüstan, Azərbaycan, Ermənistan) imzalayıb. 1995-ci ildə Yunanıstan, 1997-ci ildə Bolqarıstan, 2004-cü ildə Serbiya təşkilata üzv oldu.

### 16 il əvvəl...




**29 iyun 2007-ci ildə** UNESCO-nun Dünya İrs Komitəsinin Yeni Zelandiyanın Kristcorc şəhərində keçirilən 31-ci sessiyasında Qobustan Tarix-Bədii Qoruğu təşkilatın Dünya İrsi Siyahısına daxil edilib.

**Hazırladı: V.Orxan**

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova və muzeyin kollektivi Cəfər Cabbarlının Ev-Muzeyinin direktoru Qəmər Bağırovaya qardaşı

**Altay Abbasovun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzetinin kollektivi Azərbaycan Dövlət Tərcümə Mərkəzinin əməkdaşı, filoloq, publisist Bəhlul Seyfəddinoğluna qardaşı

**Altay Abbasovun**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5048. **Sifariş:** 1652
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641